


**"i24 news" telekanalında Azərbaycan-İsrail dostluğu haqqında veriliş yayımlanıb**

5

Səs
№ 005 (6446) **12 yanvar** 2022-ci il. **Qiymətı 60 qəpik**

# Yeni ildə böyük zəfərlərə, ardıcıl uğurlara imza atacağıq!



2

"Mən Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam..."

# Ermənistan Kəlbəcər istiqamətində qanlı təxribat törətdi!



3

XİN: "Ermənistanın hərbi-siyasi rəhbərliyi bölgədə vəziyyətin gərginləşdirilməsinə görə bilavasitə məsuliyyət daşıyır"



15

## İqor Korotçenko: Azərbaycanda "rəngli inqilab" ssenarisi baş tutmaz, çünki...

## "Omicron"a qarşı ən yaxşı müdafiə: Güclü immunitet üçün necə qidalanmalı




# Ronaldo Messinin komandasına keçir?



16



## Soyuqlardan necə qorunmalıyıq?

10

Fəsillər Yer oxunun əyilməsi və onun il boyu Günəş ətrafında hərəkəti səbəbindən baş verir. Ağır qış şəraitinin...



## Argentina saytı: 2022-ci ilin Cənubi Qafqazda sülh və təhlükəsizlik vəd etdiyini düşünmək üçün mühüm əsas yaranıb

6

Argentinanın "La City" saytında İkinci Qarabağ münaqişəsindən sonra Azərbaycanla Ermənistan arasındakı...

# Yeni ildə böyük zəfərlərə, ardıcıl uğurlara imza atacağıq!



## "ŞUŞA İLİ" ELAN EDİLMƏSİ AZƏRBAYCANIMIZIN DÜNYAYA TANINMASIDIR

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı xalqına, torpağına, Vətəninə olan sonsuz sevgisinin təcəssümüdür. Sərəncamda deyilir: "Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram: 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin". Bəli, son 18 illik prezidentlik fəaliyyəti dövründə xalq Prezident İlham Əliyevin bütün təşəbbüslərini dəstəkləyib və bu gün də dəstəkləyir.

**"Bu il ölkəmiz üçün uğurlu olub. Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm". Bu fikirləri Prezident İlham Əliyev 2021-ci il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində deyib.**

Bəli, heç kəsə sirr deyil ki, Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Dövlət başçısının Qarabağla bağlı vədlərini də yerinə yetirməsinin şahidi olduq. Prezident İlham Əliyev hər zaman çıxışlarında bildirib ki, "Mənim sözüm imzam qədər qüvvətlidir".

18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz - Qarabağ Azərbaycandır! - şüarlı haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq!

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

"Mən Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam..."

**Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir!**

Bəli, bu, həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır. Ancaq təəsüf doğuran odur ki, hələ də bəzi məmurlar şəxsi ambisiyalarından əl çəkməyərək çirkin əməllərə əl atır, işğaldan azad olunan torpaqlarda dövlət başçısının dediyi kimi: "Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir. Bu, yolverilməzdir və qəbuledilməzdir".

Dövlətimizin başçısı İlham Əliyev Dövlət Bayrağı Meydanının açılışında çıxış edərkən demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. Prezident İlham Əliyev 2021-ci ilin yanvarın 14-ü həmin vədini yerinə yetirdi və Şuşa səfəri müzəffər Ali Baş Komandanın sözünün və əməlinin vəhdətinin növbəti nümayişi oldu. Bununla da, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı.

Ali Baş Komandanımız Prezident İlham Əliyev çıxışlarında ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacağını demişdi. Bu sözlər də artıq reallığa çevrilib və artıq həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşada güllələnmiş büstləri erməni vandalizminin şahidləridir. Birinci Qarabağ müharibəsi dövründə ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Lakin ulu öndər Heydər Əliyevin tədbirləri nəticəsində bu büstlər ermənilərdən pulla alınmışdı və artıq onlar Şuşadadırlar.

### QƏLƏBƏMİZİN "ZƏFƏR YOLU" QARABAĞIN TACI OLAN ŞUŞA ŞƏHƏRİNƏ QƏDƏR UZANIR

Şuşanın düşməndən azad edilməsinin və qələbəmizin simvolu olan "Zəfər yolu"nun inşası da davam edir. Ötən il noyabr ayının 16-da təməli qoyulmuş "Zəfər yolu"nun tikintisi ilə bağlı dövlət başçımızın verdiyi sözün reallığını görürük. Dövlət başçımızın dediyi kimi, cəmi 8-9 ayda bütün bu uğurlu işlər görülüb: "Paralel olaraq Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu çəkilir, 4-6 zolaqlı yoldur. Zəngilan-Qubadlı-Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları - bütün yollar üzrə qızğın iş gedir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir".

Bütün bu görülən işlərlə yanaşı, üç aeroportun tikilməsi və növbəti ardıcıl olaraq görülən işlər bir daha onu göstərir ki, Qalib liderimizin sözü ilə əməli üst-üstə düşür. Çünki dövlət başçımızın dediyi bu vədlər də artıq reallığa çevrilməkdədir. Bu gün Azərbaycan xalqı da Qalib Liderimiz Prezident İlham Əliyevin son 18 il prezidentlik fəaliyyəti dövründə bir daha gördü ki, Azərbaycan Prezidenti daima xalqı ilə birlikdədir, onların yanındadır, bütün görülən işləri də xalqına aydın şəkildə çatdırır. Dövlət başçımızın dediyi kimi: "Mən bu ardıcıllıq haqqında Azərbaycan xalqına dəfələrlə demişəm ki, biz hansı işləri görəcəyik, insanlar da bilsinlər".

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Əlbəttə, Prezident İlham Əliyevin 18 illik prezidentliyinin əsas məqsədi xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi bütün gücü ilə möhkəmləndirməkdir. Əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə əldə etdiyi bu misilsiz nailiyyətlər ümummilli lider Heydər Əliyev siyasətinin təntənəsi, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin xalqına olan sonsuz sevgisinin təcəssümüdür.

"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu, düzgün siyasət bir daha onu göstərir ki, 2022-ci il də əvvəlki illər kimi, Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Və növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək.

***RƏFİQƏ KAMALQIZI***

# SƏS Media

## Qrupunun rəhbərliyi və əməkdaşları Fəxri Xiyabanda olublar



**"SƏS" qəzetinin təsis edilməsinin 31 illiyi münasibətilə qəzetin rəhbərliyi başda olmaqla kollektivin üzvləri Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri düzüblər.**



Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Fəxri Xiyabanı ziyarət edən qəzetin kollektivi daha sonra "Əkinçi" qəzetinin təsisçisi, Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı önünə əklil qoyublar, xatirəsini ehtiramla anıblar.



"SƏS" qəzetinin təsis edilməsinin 31 illiyi ilə bağlı tədbir sonra qəzetin redaksiyasında davam etdirilib. "SƏS" Media Qrupunun rəhbəri, Əməkdar jurnalist Bəhruz Quliyev çıxış edərək deyib ki, "SƏS" qəzeti fəaliyyətinin 31 illik dövründə keşməkeşli bir yol keçib: "Keçilən bu yol həm də kifayət qədər şərəfli bir yoldur ki, onun təməlində müstəqil mətbuatımızın əqidə məktəbi dayanır. Yəni "SƏS" qəzeti yalnız üzərinə düşən tarixi missiyaları yerinə yetirən mətbu orqanı deyil, həm də bir mətbuat məktəbidir. Məhz Azərbaycanın müstəqilliyi ilə yaşıd olan bu qəzet bütün fəaliyyəti dövründə xalqın sevimli mətbuat orqanına çevrilməyi bacarıb və daim Azərbaycan dövlətçiliyinin, ulu öndər Heydər Əliyev ideyalarının yaşadılmasına, inkişafına, tərəqqisinə çalışıb. Əlbəttə ki, belə bir şərəfli, qətiyyətli yolu keçmək heç də hər bir mətbuata nəsib olmur. Biz fəxr edirik ki, həmin yolu keçmək, qət etmək bizlərə nəsib olub". Sonda qəzetin rəhbərliyi başda olmaqla kollektiv üzvləri süfrə arxasında əyləşərək nahar ediblər və bayram tortunu kəsiblər.

# Ermənistan Kəlbəcər istiqamətində qanlı təxribat törətdi!

XİN: "Ermənistanın hərbi-siyasi rəhbərliyi bölgədə vəziyyətin gərginləşdirilməsinə görə bilavasitə məsuliyyət daşıyır"



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonu istiqamətində növbəti təxribatı ilə bağlı məlumat yayıb. XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə Nazirliyinin məlumat verdiyi kimi, 2022-ci il yanvarın 11-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuz, əsgər Nəzərov Ayaz Azər oğlu şəhid olub.**

Qeyd olunub ki, Ermənistan tərəfinin hərbi təxribatları davam etdirməsini qətiyyətlə pisləyirik. İki dövlət arasında münasibətlərin normallaşması istiqamətində addımlar atmaq əvəzinə, dövlət sərhədində növbəti qanlı təxribatı törətməklə Ermənistanın hərbi-siyasi rəhbərliyi bölgədə vəziyyətin gərginləşdirilməsinə görə bilavasitə məsuliyyət daşıyır. Allah şəhidimizə rəhmət eləsin.

# Fransanın

## "La Tribune" portalı Azərbaycan haqqında yazır

**Fransanın "La Tribune" portalında Azərbaycanın bu ölkədəki səfiri Rəhman Mustafayevin "Fransa ilə Azərbaycan arasında iqtisadi əlaqələri niyə möhkəmləndirmək lazımdır" sərlövhəli məqaləsi dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə ölkələrimiz arasında iqtisadi, siyasi və diplomatik sahələrdə konstruktiv münasibətləri yenidən möhkəmləndirməyin vaxtının çatdığı bildirilib, hər iki ölkənin bunda maraqlı olduğu qeyd edilib.

Məqalədə ölkələrimiz arasında qarşılıqlı sərmayə yatırımlarından danışılıb. Fransa ilə Azərbaycan arasında qarşılıqlı iqtisadi mübadilədən söz açılıb, son illərdə ticarət dövriyyəsinin aşağı düşdüyü qeyd edilib. Diqqətə çatdırılıb ki, son illər iqtisadi əməkdaşlığın zəifləməsinin əsas səbəbi ikitərəfli münasibətlərdə siyasi ab-havanın pisləşməsi ilə bağlıdır. Vurğulanıb ki, 2020-ci ilin payızında Ermənistan-Azərbaycan müharibəsi zamanı Fransanın qeyri-obyektiv mövqeyi, 2021-ci ildə münaqişədən sonrakı dövrdə bəzi fransız siyasətçilərin qızışdırıcı bəyanatları və hərəkətləri, onların Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətsizliyi iki ölkə arasında dialoq və əməkdaşlığı çətinləşdirib, əvvəlki illərdə siyasət, iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində əldə olunmuş nailiyyətləri heçə endirib. Vurğulanıb ki, etimad və əməkdaşlığın əvvəlki səviyyəsinə çatması üçün vaxt, xoşməramlılıq, ikitərəfli münasibətlərin gələcəyinə məsuliyyətlə yanaşma və hər şeydən əvvəl, hər iki tərəfin konkret səyləri lazımdır.

"İnanırıq ki, Fransa Cənubi Qafqaz regionunda formalaşmış münaqişədən sonrakı vəziyyətin yeni reallıqlarını anlayacaq və bizim "qırmızı xətlərimiz"in Fransanınkından fərqlənmədiyini dərk edəcək. Bizim üçüncü respublikamızın ərazisi beşinci Fransa Respublikası kimi unitar və bölünməzdir, onun bütün vətəndaşları etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq, qanun qarşısında bərabərdir", - deyə R.Mustafayev məqaləsində bildirib.

Səfir qeyd edib ki, 44 günlük müharibə artıq tarixə çevrilib, münaqişə həll olunub. Bu gün münaqişədən sonrakı dövrdə Azərbaycanın prioritetləri Qarabağ bölgəsinin yenidən qurulması və inkişafı, regionumuzda sülhün və təhlükəsizliyin təmin edilməsidir. Həmçinin işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, işğal zamanı dağıdılmış kənd və şəhərlərin yenidən qurulması, yandırılmış meşələrin, çirklənmiş torpaqların, çay və göllərin bərpası, mədəni və dini irsin bərpasıdır. Bildirilib ki, Cənubi Qafqaz regionu ölkələrinin - Azərbaycan, Ermənistan və Gürcüstan iqtisadiyyatlarını bir-biri ilə, eləcə də qonşu ölkələrlə -Rusiya, Türkiyə və İran, Avropa, Asiya və Yaxın Şərq kimi dünya bazarları ilə birləşdirməyə hesablanmış yeni böyük infrastruktur və nəqliyyat layihələrinin həyata keçirilməsi planlaşdırılır. Qonşu olan ermənilərlə azərbaycanlıların barışığı, Qarabağ ermənilərinin Azərbaycanın hüquqi, iqtisadi və mədəni məkanına inteqrasiyası, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması da prioritetlər sırasındadır.

Bütün bu proseslərdə Fransa böyük rol oynaya bilər və oynamalıdır. Böyük dövlət imici təkcə ərazi ölçüsünə və nüvə raketlərinin sayına görə deyil, həm də digər dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət də daxil olmaqla, beynəlxalq hüququn fundamental prinsiplərinə riayət etməklə məsuliyyətli və qərəzsiz siyasət yürütmək qabiliyyətinə əsaslanır.

"Fransaya tez-tez xatırlatdığımız və aktuallığını itirməyən tezisimiz ondan ibarətdir ki, ikitərəfli münasibətlərin inkişafı üçün hər iki ölkə eyni səviyyədə məsuliyyət daşıyır. Azərbaycan öz məsuliyyətini dərk edir və bu istiqamətdə irəliləməyə hazırdır. Fransanı da buna dəvət edirik", - deyə məqalədə qeyd edilib.



LA TRIBUNE

Pourquoi il faut consolider les relations économiques entre la France et l'Azerbaïdjan

OPINION. Il est temps pour la France et l'Azerbaïdjan de renouer des relations constructives en matière économique, commerciale, politique et diplomatique. C'est l'intérêt réciproque des deux pays dans de nombreux domaines. Par Rahman Mustafayev, ambassadeur de la République d'Azerbaïdjan en France.

Écoutez cet article

Rahman Mustafayev
10 Jan 2022, 12:02

Air France-KLM augmente le prix des billets pour financer les carburants durables

# “Dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb”

Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verilib. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-dini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri ardıcıl olaraq həyata keçirilir. ”Dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb”, - deyə çıxışlarının birində bildirən Cənab Prezident bu işlər haqqında Azərbaycan vətəndaşlarının müntəzəm olaraq məlumatlandırıldığını diqqətə çəkib: ”Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq”.






Dövlət başçısının işğaldan azad olunan ərazilərə səfərləri çərçivəsində yeni layihələrin həyata keçirilməsinə start verilir. Füzuli, Şuşa, Zəngilan kimi işğaldan azad olunan ərazilərdə aparılan abadlıq-quruculuq işləri uğurla davam etdirilir. Azərbaycan Prezidentinin vurğuladığı kimi, ”Azərbaycanın bölgələrinə bu il 47 dəfə səfər etmişəm, bu səfərlərin 32-si azad edilmiş torpaqlara olan səfərlərdir. Təkcə Şuşa şəhərinə 7 dəfə getmişəm. Biz Şuşada böyük quruculuq işlərinə start verdik və azad edilmiş torpaqlar arasında təbii olaraq ən genişmiqyaslı bərpa işləri Şuşa şəhərində aparılır. Eyni zamanda, digər şəhər və kəndlərdə çox genişmiqyaslı işlər aparılır və aparılacaq”.

## ”GÖRÜLMÜŞ İŞLƏR NƏTİCƏSİNDƏ DEMƏK OLAR Kİ, BİZ ARTIQ POSTBÖHRAN DÖVRÜNƏ QƏDƏM QOYDUQ”

Artıq bildiyimiz kimi, Füzuli beynəlxalq hava limanı qısa bir zamanda tikilərək istifadəyə verildi. Laçın və Zəngilanda isə beynəlxalq hava limanlarının tikintisi davam etdirilir. Görülən irimiqyaslı işlər bu ərazilərin müasir bir şəhərə çevriləcəyindən xəbər verir. İşğaldan azad edilmiş rayonlarda ”yaşıl enerji” zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə ”ağıllı şəhər” və ”ağıllı kənd” konsepsiyalarının tətbiqinə start verilib. Əlbəttə ki, həyata keçirilən genişmiqyaslı layihələr deməyə əsas verir ki, işğaldan azad olunan bütün ərazilərimiz müasir tələblər çərçivəsində yenidən qurulacaqdır.



Heç şübhəsiz ki, erməni vandalları, təcavüzkarları tərəfindən dağıdılmış əraziləri yenidən qurmaq böyük güc, potensial və zaman tələb edir. ”Bütün bu işlərə nail olmaq üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir. Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük. Əlbəttə, əgər iqtisadi inkişaf sürətlə getməsə, bu işləri bu sürətlə aparmaq mümkün olmayacaq. Görülmüş işlər nəticəsində demək olar ki, biz artıq postböhran dövrünə qədəm qoyduq”.

## DÖVLƏT BAŞÇISININ İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRİMİZƏ HƏR SƏFƏRİ TARİXİ HADİSƏYƏ ÇEVRİLİR

Ölkəmizdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və işğaldan azad edilən ərazilərdə böyük işlər reallaşır. Azərbaycan sosial layihələrini uğurla reallaşdırır və işğaldan azad olunan ərazilərdə silsilə və kompleks tədbirlər həyata keçirilir. Tərtərdə ”Suqovuşan-1” və ”Suqovuşan-2” Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra istifadəyə verilməsi, eləcə də Laçında Güləbird kəndində Su Elektrik Stansiyası istifadəyə verilməsi bu ərazilərdə quruculuq işlərinin aparılmasından bir xəbərdir. Laçın rayonu işğaldan azad olunandan bir neçə ay sonra istismara verilən Su Elektrik Stansiyası azad edilmiş torpaqlarda istismara verilən ilk elektrik stansiyasıdır. Xatırladaq ki, Cənab Prezident İlham Əliyevin müvafiq Fərmanına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə xüsusi dövlət əhəmiyyətli binaların elektrik enerjisi ilə təchizatının təcili təmin olunması çərçivəsində təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Cənab Prezidentin mütəmadi olaraq işğaldan azad olunan ərazilərə səfərləri və bu məkanlarda görülən işlərlə tanışlığı, eləcə də bir sıra obyektlərin təməlini qoyması bu ərazilərin qısa zamanda cənnətə çevriləcəyindən xəbər verir. Cənab Prezidentin Cəbrayıla səfəri zamanı orada ilk çoxmənzilli yaşayış məhəlləsinin, rayon Mərkəzi Xəstəxanasının, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməli qoyulmuşdu. Şuşaya səfərində Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlinin qoyması uğurla reallaşacaq layihələrin həqiqətən də bu məkanların cənnətməkan olacağınına söykənir. Cənab Prezidentin Hadruta səfəri çərçivəsində Hadrutda Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışını etmişdi. Görülən bu və ya digər işlər yeni, gözəl və rahat həyatdan soraqdır.



## TƏHLÜKƏSİZ HƏRƏKƏT ÜÇÜN YOLLAR MİNALARDAN TƏMİZLƏNİR

Xüsusi olaraq vurğulayaq ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərin minalardan, partlamamış hərbi sursatdan və digər partlayıcı qalıqlardan təmizlənməsi, zərərsizləşdirilməsi bu gün qarşıda duran əsas məsələlərdən biridir. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yaradılıb. Artıq Azərbaycanın Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan kimi rayonlarının ərazilərində aparılan əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə, eləcə də tank əleyhinə minlərlə mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Bu işi gücləndirmək məqsədi ilə bildiyimiz kimi, dövlət başçısı ”Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərman imzalayıb. Fərman Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi sahəsində əlaqələndirmə işini gücləndirmək məqsədi daşıyır. Bu günə qədər yüzdən artıq vətəndaşımız minaya düşərək, xəsarət almış və onlarla insan həyatını itirmişdir. Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir.

Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb. Bütün bunlara baxmayaraq, Azərbaycan işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərini davam etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

ARAŞDIRMA

# “Omicron” variantı təhlükədir

**“Omicron” variantı ilk dəfə 11 noyabr 2021-ci ildə Cənubi Afrikada bir ölkə olan Botsvanada toplanmış nümunələrdə aşkar edilmişdir. Koronavirusun Delta variantından daha yoluxucu olduğu bildirilən ”Omicron” variantına görə bütün dünyada yeni yoluxmaların sayı durmadan artır. Çox tez yayılan ”Omicron” variantının simptomları əvvəlki variantlardan fərqlənir və soyuqdəymə ilə qarışdırılır. Bununla belə, ”Omicron” xüsusilə yaşlılar və sağlamlıq problemləri olanlar üçün böyük risk daşıyır.**

”Omicron” üçün gizli dövrün müddəti nə qədərdir?”, ”Omicron” hansı simptomlara səbəb olur?”, ”Omicron” ilə ciddi xəstəlik ehtimalı nədir?” və ”Omicron” səbəbi ilə yaşlılar nə qədər tez-tez reanimasiya şöbəsinə yerləşdirilir?” Bu kimi suallara cavabı daha çox buradan tapa bilərsiniz.

**YOLUXMA**




Ümumdünya Səhiyyə Təşkilatına görə, ”Omicron” variantının Delta da daxil olmaqla digər variantlardan daha yoluxucu olduğu düşünülsə də, bu mövzuda daha çox araşdırmaya ehtiyac var.

**RİSKLİ XƏSTƏLƏR**

”Omicron” variantının xəstəliyin şiddətinə necə təsir etdiyi barədə hələ kifayət qədər məlumat toplanmamışdır. Variantın ilk dəfə təsbit edildiyi Cənubi Afrikada xəstəxanaya yerləşdirilənlərin sayı artıb. Lakin unutmaq olmaz ki, bu artım həm ”Omicron” variantı, həm də yoluxmuş insanların sayının artması ilə bağlı ola bilər. Yeni növ koronavirusun bütün variantlarının insanların həyatını ağırlaşdıra biləcəyi məlum olduğundan, ”Omicron” variantına qarşı lazımi ehtiyat tədbirləri görülməlidir.



İndiyə qədər verilən məlumatlar göstərir ki, əvvəllər SARS-CoV-2-yə yoluxmuş insanların ”Omicron” variantına yenidən yoluxma riski yüksəkdir. Peyvəndlərin ”Omicron” variantından nə dərəcədə qorunduğuna dair hələ kifayət qədər məlumat yoxdur. Bununla belə, məlumdur ki, vaksinlər əvvəllər halların əksəriyyətini təşkil edən Delta variantına qarşı effektivdir. COVID-19-a qarşı peyvənddən başqa heç bir effektiv profilaktik və ya müalicə üsulu yoxdur. Buna görə də cəmiyyətin peyvənd edilməsi COVID-19 səbəbi ilə ağır xəstəliklərin və ölümün qarşısını almağın yeganə yoludur. Ölkəmizdə iki doza peyvənd almış və ikinci dozadan 3 ay sonra ”Omicron” variantından qorunmaq üçün xatırlatma dozasının olması vacibdir.




**“OMİCRON” VARİANTINDAN QORUNMAQ ÜÇÜN NƏ ETMƏLİ ?**

”Omicron” variantından qorunmaq üçün pandemiyanın başlanğıcından tövsiyə olunan təcrübələrə tam riayət etmək lazımdır. Xüsusilə soyuq hava ilə birlikdə insanların qapalı yerlərdə daha çox vaxt keçirməsi virusun yayılmasına zəmin yaradır. Bu vəziyyətin qarşısını almaq üçün izdihamlı mühitlərdə maska heç vaxt çıxarılmamalıdır. Bundan əlavə, sosial məsafəyə diqqət yetirmək, əlləri tez-tez yumaq və ya dezinfeksiya etmək də virusun yayılmasının qarşısını alır. Risk qrupunda olan insanların vaxt itirmədən peyvəndin xatırladıcı dozasını alması çox vacibdir.

**İnfeksionist Vüqar Cavadzadə mövzu ilə əlaqədar SİA-ya məlumat verib:** ”Bildiyimiz kimi ölkəmizdə 12 nəfərdə koronavirusun ”Omicron” variantının aşkarlanması haqqında rəsmi məlumat var. ”Omicron” variantı Covid-19-un digər mutasiya olunmuş növlərindəndir. Fərqli xüsusiyyəti isə ”Omicron” variantının yoluxuculuq qabiliyyətinin çox olmasıdır. Delta variantına nisbətən yeni yaranan ”Omicron” mutasiyası 4 dəfə daha çox yoluxuculuq qabiliyyətinə malikdir. Daha çox uşaqlar arasında yayılır. Digər kilinik əlamətlərinə görə onu istər Delta variantından, istərsə də Covid-19 virusundan ayırmaq çox çətindir. Amma müəyyən müddətdir ki, Avropada ”Omicron” variantı yayılır. Aparılan tədqiqatlara əsasən bu variantda boğazda kəskin ağrı və burun axması




əlamətləri müşahidə olunur. Saydığımız əlamətlər qrip infeksiyasında da var. Bəzi ”Omicron” variantına yoluxan şəxslər bunu qrip infeksiyası ilə qarışdırır”.

*Qönçə Quliyeva*

# DSX rəisi helikopter qəzasında həlak olan hərbçilərin məzarlarını ziyarət edib

Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olmuş hərbi qulluqçuların anım mərasimləri keçirilib. SİA Dövlət Sərhəd Xidmətinə istinadən xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər rəhbər vəzifəli şəxslər Bakı şəhərində II Fəxri Xiyabanda, Əmircan və Zirə qəsəbələrində, həmçinin Beyləqan rayonunda hərbi qulluqçuların məzarlarını ziyarət edib əziz xatirələrini ehtiramla yad edib, daha sonra yas mərasimlərində iştirak ediblər.



## “i24 news” telekanalında Azərbaycan-İsrail dostluğu haqqında veriliş yayımlanıb

İsrailin ərəb dilində yayımlanan ”i24 news” televiziya kanalında Azərbaycan-İsrail dostluğu haqqında veriliş efirə gedib. AZƏRTAC xəbər verir ki, proqramın qonağı olan ABŞ-ın Etnik Anlaşma Fondunun sədri Ravvin Mark Şnayer müsəlman ölkələri arasında ən çoxsaylı yəhudi icmasının məskunlaşdığı Azərbaycanın xalqlar arasında tolerantlıq nümunəsi olduğunu vurğulayıb. O, diqqətə çatdırıb ki, Azərbaycanda 8 mindən artıq yəhudi yaşayır və onlar bütün etnik qrupların nümayəndələri ilə birlikdə özlərini doğma vətəndə hiss edirlər.




R.M.Şnayer Prezident İlham Əliyevin 11 il əvvəl Bakıdakı ”Xabad-Or-Avner” təhsil mərkəzinin açılışında iştirakından bəhs edərək, dövlətimizin başçısının mədəniyyətlər və dinlərarası dialoq üzrə fəaliyyətinin bütün siyasi liderlər üçün örnək olduğunu vurğulayıb. O, qeyd edib ki, Azərbaycan Tel-Əvivdə turizm bürosu açıb, Beynəlxalq Holokost Qurbanlarının Xatirə Günündə iştirak edib. Eyni zamanda, rəsmi Bakı bütün dünyada irqçilik və etnik-dini zəmində ayrı-seçkiliyin bütün təzahürlərinin qarşısının alınmasında mühüm rol oynayır.

## İQTİSADÇI-EKSPERT: Banklar vətəndaşlara niyə yalançı sms göndərir?

“Ümumiyyətlə, istehlakçılara yalan məlumatların verilməsi qanunla qadağandır. Çünki bu əslində ”İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanuna ziddir”. Bu sözləri SİA-ya açıqlamasında iqtidisadçı-ekspert Vüqar Bayramov deyib.

Vüqar Bayramov bu barədə fikirlərini belə izah edib: ”İstər banklar, istər digər qurumlar, eyni zamanda maliyyə xidməti göstərən təşkilatlar müştəriyə onun ödəmə qabiliyyətinə və ala biləcəyi kredit məbləğinə uyğun olaraq məlumat göndərməlidir. Əgər mesaj göndərdiyi müştərinin ödəmə qabiliyyəti və gəlirləri ilə bağlı məlumatlara malik deyilsə, o zaman kreditin şərtləri ilə bağlı məlumat ötürməlidir ki, hansı şərtlər daxilində hansı kreditləri ala bilər. Yəni vətəndaşlara ümumi məlumatların göndərilməsi və hətta onun ödəmə qabiliyyətləri və gəlirləri nəzərə alınmadan o məlumatların ötürülməsi istehlakçı hüquqlarına ziddir. Bu əslində istehlakçı hüququnun pozulması anlamına gəlir. Çünki vətəndaşa o tip məlumat gəlir vətəndaş gedir və burada müəyyən vəsait və zaman sərf edir. Sonradan isə məlum olur ki, onun o şərtlərdə və miqdarda kredit götürmək hüququ yoxdur. Ona görə də, tənzimlənmə olmalıdır. Mərkəzi Bank tərəfindən detallarla bağlı xüsusi qaydaların müəyyənləşdirilməsi məqsədəuyğun olardı. Çünki nəticə etibarı ilə bankların göndərdiyi sms-lər və ya kredit götürməklə bağlı dəvətlər vətəndaşların hüquqlarının pozulmasına gətirib çıxarmamalıdır”.

*Turqay Musayev*

## Azərbaycanda koronavirusdan ölən jurnalistlərin sayı açıqlanıb

2021-ci ildə 288 jurnalist koronavirusa yoluxub. 2020-ci ildə isə bu göstərici 117 olmuşdu. SİA-nın məlumatına görə, bu barədə Jurnalistlərin Həmkarlar İttifaqının illik hesabatında deyilir. Bununla da 2020 və 2021-ci illərdə yoluxanların ümumi sayı 405 nəfərə çatıb. COVID-19-a yoluxma səbəbindən həyatını itirən jurnalistlərin sayı 2021-ci ildə 8 nəfər olub (2020-ci ildə də 8 nəfər olub). Bununla da 2020 və 2021-ci illərdə koronavirusdan həyatını itirən jurnalistlərin ümumi sayı 16 nəfərə çatıb.



Tibbi Ərazi Birliklərinin İdarəetmə Birliyi (TƏBİB) Mətbuat Şurasının müraciətini nəzərə alaraq, jurnalistlər üçün növbədənkənar peyvəndləmə kampaniyasını təşkil edib. Kampaniya çərçivəsində 800-dən çox jurnalistə növbədənkənar peyvəndləmə həyata keçirilib.

# Sosial xidmətlər sahəsində yeni bir səhifə - “ASAN xidmət”!




Bu gün dünya ölkələri sosial xidmətlər sahəsində Azərbaycanın yeni brendi olan ”ASAN xidmət”in təcrübəsini öyrənir. ”ASAN xidmət”in uğurlu layihə olması qısa bir zamanda onun beynəlxalq mükafatlara layiq görülməsi, yüksək qiymətləndirilmsəi ilə nəticələndi. ”ASAN xidmət”in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilib. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunub və Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə






əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. Bu sırada bir neçə beynəlxalq dərəcəli sertifikatlara layiq görülməsi də qeyd olunmalıdır. Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Cənab İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar ”ASAN xidmət”in fəaliyyətini yüksək qiymətləndirirlər: ”BMT ”ASAN”ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir”. ”Uğur 2013” ”səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə” nominasiyasının qalibi olub. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən, qabaqcıl idarəetmə üzrə ”ISESCO-nun ASAN mükafatı” təsis olunub. Əlbəttə ki, ”ASAN xidmət”ə olan maraq gündən-günə artmaqdadır. Vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə yaradılan ”ASAN xidmət” vətəndaş maraqlarına xidmət edir. Vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir.

## ICESCO-YA ÜZV ÖLKƏLƏR AZƏRBAYCANIN TƏCRÜBƏSİNDƏN İSTİFADƏ ETMƏLİDİRLƏR

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının Baş direktoru xidmətin fəaliyyətini yüksək qiymətləndirərək qeyd edib ki, 4-cü sənaye inqilabı dövründə ”ağıllı xidmətlərin” tətbiqi böyük əhəmiyyətə malikdir və təşkilata üzv ölkələr Azərbaycanın təcrübəsindən istifadə etməlidirlər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, ”ASAN xidmət”in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi: ”İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq”.

Bu günün reallıqları deməyə əsas verir ki, ”ASAN xidmət”in coğrafi əhatəsi genişlənir və xidmətlərinin sayı artır. Bu, əlbəttə ki, ölkəmizin dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulub. Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni bir mərhələ açan Azərbaycan brendi şəffaflığı, operativliyi ilə vətəndaş məmnunluğu yaradıb.

***Zümrüd BAYRAMOVA***

# Argentina saytı: 2022-ci ilin Cənubi Qafqazda sülh və təhlükəsizlik vəd etdiyini düşünmək üçün mühüm əsas yaranıb

**Argentinanın ”La City” saytında İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasındakı münasibətlərdən bəhs edən məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, yazıda Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə noyabrın 26-da keçirilən Soçi görüşü barədə məlumat verilir. Qeyd olunur ki, bu görüşdə tərəflərin son bir ildə sülhlə bağlı göstərdiyi səylər rəsmiləşdirilib. Tərəflər sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı danışıqlara başlamaqla bağlı razılığa gəliblər.**

Bildirilir ki, Birinci Qarabağ müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Bakı ilə Yerevan arasında aparılan sülh danışıqlarının məzmununa toxunan Paşinyan bildirib ki, Qarabağın statusu yalnız Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində müəyyən edilə bilər. Həmçinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq nəqliyyat və regional rabitə kanallarının açılması ilə bağlı aparılan danışıqlarda da müsbət nəticələr mövcuddur. Beləliklə, 2022-ci ilin Cənubi Qafqazda daha çox sülh və təhlükəsizlik vəd etdiyini düşünmək üçün mühüm əsas yaranıb.

Yazıda postmünaqişə dövründə Rusiyanın və Avropa İttifaqının tərəflər arasında vasitəçilik rolundan da danışılır. Bildirilir ki, 2022-ci ildə əsas qərarların Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli formatda keçirilən görüşlərində veriləcəyi ehtimal edilir. Bununla yanaşı, Avropa İttifaqının vasitəçiliyi ilə iki ölkə lideri arasında əlaqələr və görüşlər də baş tuta bilər. Eyni zamanda, 2022-ci ildə Azərbaycan və Ermənistan hökumətlərinin sərhədlərin delimitasiyası üçün işçi qruplarının yaradılması elan edəcəyi gözlənilir. Təbii ki, bu istiqamətdə atılacaq addımlar Azərbaycan - Ermənistan sərhədində vəziyyəti daha da sabitləşdirəcək. Bu prosesin hər üç ölkə tərəfindən tam dəstəklənməsi faktı regional sülh və təhlükəsizlik üçün əhəmiyyətli və perspektivlidir.




Məqalədə qeyd olunur ki, böyük ehtimalla Bakı və Yerevan regiondakı nəqliyyat və kommunikasiya məhdudiyyətlərinin aradan qaldırılması ilə bağlı danışıqlarda razılıq əldə etməyə çalışacaqlar. Ötən il əldə olunan nəticələr bu proses üçün səmərəli zəmin yaradır.

Bildirilir ki, 44 günlük müharibədən sonra irəli sürülən ”3+3” regional əməkdaşlıq təşəbbüsünün 2022-ci ildə bölgədəki problemlərin həlli və müzakirəsi üçün aktiv platformaya çevriləcəyi gözlənilir.

# Övladı olmayanlar nə etməlidir? - DİN XADİMİ AÇIQLADI



”Əlbəttə ki, Allah-təala hər birimizin boynuna bir vəzifə qoyub. Bir insan olaraq necə bu həyatı yaşayırıqsa eləcə də insanlıq vəzifələrimiz var”. Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev bildirib.

”O vəzifələrdən biri də ailə həyatı qurmaqdır. Peyğəmbərimiz buyurur ki, kimin ailə qurmağa qüdrəti, maddi, mənəvi, fiziki imkanı varsa həmin şəxs mütləq şəkildə ailə qurmalıdır. Həmin insan ailə qurmasa deməli bizdən deyil, birmənalı olaraq İslamın qanunlarını pozmuş olur. Təbii ki, biz dünyaya gəlmişik. Allahın bizi öz neməti olaraq hər hansı bir ailəyə övlad olaraq bəxş edib. Eləcə də bizim də boynumuza vəzifə odur ki, biz də övladlar böyüdək, onları tərbiyə edək və cəmiyyət üçün dəyərli şəxsiyyətlər, fərdlər, cəmiyyətə xeyir və fayda verən insanlar bəxş edə bilək. Ola bilər ki, bu hallar da var ki, hər bir ailənin övlad payı ona nəsib olmur. Bunun təbii ki, tibbi, ruhi, psixoloji səbəbləri var. Bunu mütəxəssislə araşdırırlar. Burada da bir Allahın sirri, hikməti var. Çünki, səbəbsiz heç nə yoxdur. Quran məntiqi ilə hər bir şeydə xeyir və səbəb var. Məsələn bir gün Allah mənə övlad veribsə, mən bunu Allahdan istəyirəmsə dualarımızda bunu etməliyik ki, ”Allah-təala, mənə xeyirli övlad nəsib et. Əgər o mənə baş ucalığı gətirməyəcəksə onu mənə nəsib etmə”.

Həqiqətən də bu dua gözəl bir dua, gözəl bir istəkdir. Təbii ki, həyatda imtahanlar da var. Bu imtahanlar mal ilə, övlad ilə, həyat tərzi ilə mümkün olan məsələdir. Bəli, bəzi ailələrin övladları olmur, onlar çalışırlar, araşdırırlar, həkimə müraciət edirlər. Bunu dinimiz buyurur ki, övlada sahib olmaq üçün insan bacardığı qədər səy göstərməlidir. Həkimə müraciət etmək lazımdırsa mütləq şəkildə elmi və tibbi imkanlardan istifadə etməlidir. Bəzən görürük ki, tibbi addımlar atılır, həkimə, təbibə müraciət edilir. Lakin yenə də övlad sahibi ola bilmirlər. Bəzən araşdırmalarda tibb mütəxəssisləri deyirlər ki, övladın olmaması ya kişi tərəfdəndir və yaxud qadın tərəfdəndir. İnsanların övlada sahib olmaq kimi bir haqqı var. O zaman dinimizdə bu nə dərəcədə tənzimlənir və necə hökm qoyulur? Əlbəttə, Allah-təala bəxş edib ki, kişi və qadın bir vəhdətdə tərəflərin razılığı ilə ailə qursunlar. Çünki, zor və güclə tərəfləri evləndirmək olmaz. Dinimizdə onlar üçün kəsilən dini kəbində kəbin hesab olunmaz, bu qeyri-qanuni olar. Hər iki tərəf izdivaca razı olmalıdır. Lakin tərəflərdən biri övladın olmaması ilə razılaşarsa onlar birlikdə yaşaya bilərlər. Bəzən görürük ki, tərəflər razılığa gəlmir və böyüklər də onlara nəyisə məsləhət edir. Onlara isə şəriət məhdudiyyət qoymur və bu ixtiyaridir. Elə ailələr də var ki, övlad nəsib olmur, onlar körpələr evindən uşağı övladlığa götürə bilirlər. Bunlar həyatda olan məsələlərdir. Lakin övladı yoxdur, Allah onlara övlad bəxş etmir fikrini tərəflər normal başa düşə bilsələr yaxşı olar”.

***Rüqəyya Orucova****

# Vüqar Rəhimzadə: "Azərbaycan yeni reallıqlar fonunda regionun mənzərəsini dəyişdi"

## Soçi və Brüssel görüşlərində əldə edilmiş razılaşmaların 2022-ci ildə reallaşacağına ciddi əsaslar var



"Tarixi Zəfərimiz Azərbaycanın qarşısında bütün sahələr üzrə geniş imkanlar açdı. Amma nəzərə alsaq ki, 30 il işğal dövründə haqlı tərəf olsaq da dünyanın ikili standartlara əsaslanan siyasətinə əsasən ölkəmizə qarşı bəzi dövlətlər tərəfindən qərəzli münasibətlər mövcud idi, bu halda son bir ildən artıq dövr ərzində bu yanaşmalarda nə kimi dəyişikliklərin baş verdiyi daha çox diqqət çəkir. Reallıq budur ki, Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində qazandığı Zəfəri ilə ilk növbədə dünyaya bu çağırışı etdi ki, bütün münaqişəli məsələlərin həllinin əsasında ədalət və hüquq amilləri dayanmalıdır. Amma illərdir bu prinsiplərin tətbiqi üçün vahid mexanizmin olmaması problemlərin meydana çıxmasına, dünyada bir etimadsızlıq mühitinin yaranmasına səbəb olub. Çünki BMT qətnamələri dövlət başçısı İlham Əliyevin bütün çıxışlarında qeyd olunduğu kimi, bəzi hallarda 1-2 saat ərzində icra edilir, Azərbaycana gəldikdə isə 30 il gözlədik. Amma Azərbaycan bu illər ərzində sadəcə gözləmədi. Həm iqtisadi qüdrətini artırdı, həm ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin inkişafına, həqiqətlərimizin təbliğinə nail oldu, həm də münaqişənin həlli üçün möhkəm hüquqi bazanın formalaşmasını təmin etdi. Azərbaycanın döyüş meydanında və informasiya cəbhəsində üstünlüyü Ermənistanın və ona havadarlıq edən dövlətlərin 30 ilə yaxın dövrdə hazırladıqları planları, xəyalları alt-üst etdi. Yeni reallıqlar fonunda regionun və dünyanın mənzərəsi dəyişdi". Bu fikirləri Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə vurğulayıb ki, Azərbaycan bütün dövrlərdə dünyaya birlik, həmrəylik çağırışlarını edib: "Bircə faktı qeyd etmək istərdik ki, 2021-ci ilin mayında Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı keçiriləndə açılış günü ölkəmizdə dostluq, qardaşlıq mühitində yaşayan xalqların, millətlərin musiqi yaradıcılığı dünyaya nümayiş olundu. Bu, Azərbaycanın tolerantlığının, multikultural dəyərlərin inkişafına verdiyi töhfələrin təqdimatı idi. Bu məqamı da qeyd edək ki, 2021-ci ildə Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Dövlətlər Təşkilatı) sədrlik müddəti başa çatdı və təşkilata sədrlik dost, qardaş Türkiyəyə təhvil verildi. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ötən ilin noyabrında torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində göstərdiyi səylərə və türk birliyinin daha da güclənməsi, möhkəmlənməsi işinə töhfələrinə görə Türk Dünyasının Ali Ordeni ilə təltif edildi. Dövlət başçısı daim bütün türk dünyasını birliyə, həmrəyliyə səsləyərək bu çağırışı da edirdi ki, bir dövlətin problemi digərinin problemi kimi qəbul olunmalı, onun həlli istiqamətində əməli fəaliyyət göstərilməlidir. 44 günlük İkinci Qarabağ müharibəsində dünya Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının fonunda bütün türk dünyasının həmrəyliyinin şahidi oldu. Türk Dövlətləri Təşkilatının istər Vətən müharibəsi, istərsə də postmünaqişə dövründə Azərbaycana dəstəyi, dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün hər zaman dəstək göstərməyə hazır olduqlarını bildirmələri də bu birlikdən qaynaqlanır."

YAP Xətai rayon təşkilatının sədri Azərbaycanın 120 ölkəni sıralarında birləşdirən Qoşulmama Hərəkatına sədrliyi ilə dünyada ədalətin və hüququn bərpası istiqamətində uğurlu addımlar atıldığını və bunun nəticəsi olaraq quruma üzv dövlətlərin qəbul etdiyi qərara uyğun olaraq ölkəmizin sədrlik müddətinin daha bir il uzadılmasından bəhs edib: "Azərbaycana beynəlxalq dəstək yüksək səviyyədədir. Hələ Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu, ölkəmizin bu gününə və gələcəyinə inamı aydın ifadəsi idi. 155 ölkənin dəstəyini qazanmaq böyük uğurdur. Tarixi Zəfərimiz bu inam və etimadın artmasında xüsusi əhəmiyyət kəsb edir. 2021-ci ilin Moskva, Soçi və Brüssel görüşləri bunu bir daha təsdiqlədi. Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammiti də bu kimi məqamların təqdimatında mühüm rol oynadı. Azərbaycanın Avropa İttifaqı, eyni zamanda, NATO ilə əlaqələri yüksələn xətlə inkişaf edir. 2018-ci ildə ölkəmizlə Avropa İttifaqı arasında imzalanan "Tərəfdaşlıq prioritetləri" münasibətlərin hazırkı və gələcək inkişafına işıq salır. Bu məqamı da qeyd edək ki, NATO-nun son Zirvə görüşlərində, sammitlərində Azərbaycanın ədalətli mövqeyinə dəstək özünü qabarıq şəkildə büruzə verirdi. Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan mövqeyi və rolu NATO-Azərbaycan münasibətlərinin inkişafında da özünü təsdiqləyir. Hər iki qurum- Avropa İttifaqı və NATO regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasına dəstək göstərməyə hazır olduqlarını bildirirlər. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə ötən ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın görüşünün təşkil olunması da bunun bariz nümunəsidir".

V.Rəhimzadə vurğulayıb ki, Azərbaycan BMT, ATƏT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlarda öz mövqeyini daha da gücləndirməklə postmünaqişə dövrünün reallıqlarının bütün dünya tərəfindən qəbuluna nail olur: "Bütün dövrlər üçün aktuallığını itirməyən və dünyanın beynəlxalq münasibətlərdə qəbul etdiyi güc və hüquq amilləri 44 günlük Vətən müharibəsində bir daha öz təsdiqini tapdı. Baxmayaraq ki, dünyanın bəzi dövlətləri beynəlxalq hüququn deyil, daha çox güc amilinin işlək mexanizmə çevrilməsində maraqlı idi. Əvvəldə də qeyd etdiyim kimi, Azərbaycan belə bir yanaşmaların hökm sürdüyü illərdə belə öz mövqeyindən bir addım da belə geri çəkilmədi, əksinə daha da gücləndi, BMT qətnamələrini təkbaşına icra etdi və sahibi olduğu torpaqları geri aldı. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində Azərbaycanın xarici siyasət uğurlarından bəhs edərkən qonşu dövlətlərlə əlaqələrə diqqəti yönəldərkən bu fikri xüsusi qeyd etmişdir ki, qonşular haqqında danışanda Ermənistanı heç vaxt bu kateqoriyadan olan ölkələrə daxil etməyib. Bu gün də daxil etmir. Amma bu inamı ifadə edir ki, nə vaxtsa Ermənistanla qonşuluq əlaqələrimiz qurulacaq. İkinci Qarabağ münaqişəsinin nəticələrini qəbul edərək Ermənistan da regional çərçivədə öz rolunu artıra bilər. Ölkə Prezidenti bu əminliyi də ifadə edir ki, Soçi və Brüssel görüşlərində əldə edilmiş razılaşmalar 2022-ci ildə real həyatda öz əksini tapacaq".

YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, 2021-ci ilin uğurlu nəticələri və 2022-ci ilin hədəfləri bu ilin də tarixə mühüm hadisələrlə zəngin il kimi yazılacağına böyük əminlik yaradır. "Şuşa İli" həm Böyük Qayıdışın başlanmasıdır, həm də dünyaya Azərbaycan xalqının öz torpaqlarının sahibi olduğunun təsdiqidir.

---

# "Sərəncamın icrası ilə əlaqədar tədbirlər görüləcək"

"Cənab Prezidentin sərəncamı ilə 2022-ci il "Şuşa İli" elan olunmuşdur. Bu yalnız Şuşa üçün yox, Azərbaycanın dövlətçilik və milli tarixi üçün xüsusi yeri olan bir hadisədir. Ümummilli lider Heydər Əliyev dediyi kimi "Şuşa Azərbaycan üçün, hər bir azərbaycanlı üçün əziz bir yerdir. Şuşa Azərbaycanın gözü və ürəyidir". 270 il öncə Pənahəli xan tərəfindən əsası qoyulan bu qala şəhər Azərbaycanın mübarizə, mədəniyyət və inkişaf simvolu kimi həmişə xalqımızın yaddaşında yaşamışdır. Şuşa şəhəri yaranandan sürətlə inkişaf etmiş, təkcə Azərbaycanın deyil, ümumillikdə Qafqazın mədəniyyət və dövlətçilik paytaxtlarından birinə çevrilmişdir. Təsadüfi deyil ki, 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərində Şuşanı Qafqazın konservatoriyası adlandırırdılar. Eyni zamanda Şuşanı Qafqazın Parisi adlandırırdılar". Bunu SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib.

Deputat qeyd edib ki, Şuşanın Azərbaycanın mədəniyyətinə, elminə, ədəbiyyatına verdiyi tarixi töhfələr misilsizdir. Ötən illərin 70-ci illərində Ümummilli lider Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi bir dövrdə Şuşa şəhəri əsaslı şəkildə inkişaf etdi, yenidən quruldu. Şuşa şəhərinin tarixi mədəni abidələri bərpa edildi və yeni abidələr, o cümlədən böyük Azərbaycan şairi və Qarabağ xanının vəziri Vaqifin məqbərə kompleksi ucaldıldı. Azərbaycanın tanınmış incəsənət ustalarının - Bülbülbülün, Natəvanın, Üzeyir Hacıbəyovun ev müzeyləri yaradıldı və onların büstü qoyuldu. Bütövlükdə ötən əsrin sonlarında Şuşa şəhərinin inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Təəssüflər olsun ki, ötən əsrin sonlarında1992-ci ilin may ayında Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu. İşğal zamanı və işğal altında qaldığı dövrdə Şuşaya olduqca böyük ziyan vuruldu və Şuşanın mədəni abidələri dağıdıldı. Şəhər demək olar ki, pis vəziyyətə düşdü. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində Şuşanı da azad etdi.




Musa Quliyev bu barədə fikirlərini belə izah edib: "Beləliklə, 8 noyabr 2020-ci il Şuşanın yenidən dünyaya gəlmə, yenidən qurulma tarixi kimi bizim tariximizə şərəfli səhifələr kimi yazılacaq. Ötən bir il ərzində, heç şübhəsiz ki, Şuşanın inkişafına cənab Prezidentin olduqca böyük diqqətinin şahidi olduq. Cənab Prezident 7 dəfə Şuşa şəhərində oldu. Prezident İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Şuşanın inkişafı üçün lazımi tədbirləri gördü. Dünyaya Şuşanın yenidən təqdimi üçün gərəkli tədbirlər həyata keçirildi. "Vaqif" poeziya günlərinin keçirilməsi, "Xarıbülbül" musiqi festivalının keçirilməsi, Şuşanın Baş planının təklif olunması və ən əsası qardaş Türkiyə dövlətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Şuşa Bəyannaməsinin qəbul olunması artıq Şuşanın yeni bir obrazda dünyaya təqdim olunması idi. Məhz cənab Prezidentin tövsiyəsi ilə Milli Məclis tərəfindən Şuşanın Azərbaycanın "Mədəniyyət Paytaxtı" elan edilməsi ilə bağlı qanunun qəbul edilməsi də Şuşanın inkişafında mühüm rol oynayacaq və bir yol xəritəsi olacaq.

Cənab Prezidentin sərəncami ilə 2022-ci ilin "Şuşa İli" elan olunması onun dünyaya təqdimatında mühüm rol oynayacaq. Belə ki, artıq Şuşa turistik və mədəniyyət mərkəzi kimi qurularaq dünyaya təqdim olunacaq. O cümlədən, yəqin ki, Şuşada bir çox tədbirlər həyata keçirələcək. Elmi tədbirlər, iqtisadi forumlar, turistik, mədəni tədbirlər həyata keçiriləcək. Beləliklə biz Şuşanın Azərbaycan və Azərbaycan xalqı üçün əziz bir yer olduğunu dünyaya bir daha çatdırmış olacağıq. Qarabağın özü bütövlükdə turistik məkandır. Şuşanın da qurulması, Şuşa ətrafında turistik obyektlərin yaradılması, yolların çəkilməsi, yaxınlıqda aeroportun və digər kommunikasiya xətlərinin yaradılması, o cümlədən Zəngəzur dəhlizinin işə salınması turistlərin, xüsusilə avropalı turistlər üçün cəlbediciliyini daha da artıracaqdır. Bu həm də Azərbaycanımızın gənc nəslinin, xüsusən uşaqlarının, yeniyetmələrin Şuşanı tanıması, dərk etməsi, sevməsi üçün böyük bir vəsilə olacaqdır. Bütövlükdə cənab Preziddentin bu sərəncamı böyük əhəmiyyət daşıyır. Sərəncamın icrası ilə əlaqədar tədbirlər görüləcək. Yəqin ki, müəyyən hökumət qurumlarının üzərinə vəzifələr düşür. Bu vəzifələrdə ictimai-siyasi təşkilatlar, vətəndaş cəmiyyətləri də Şuşanın dünyaya yenidən təqdimatında öz sözlərini deyəcəklər".

***Turqay Musayev***

# Qızıl zinət əşyalarının insan psixologiyasındakı rolu nədir?



**Aksesuarı, sözün əsl mənasında, əsas elementi tamamlayan, onu daha faydalı, cəlbedici edən köməkçi və tamamlayıcı detal kimi izah etmək olar.**

Geyim, elektronika, ev bəzəyi, avtomobil, idman və sənət kimi bir çox sahədə istifadə edilən aksessuarlar erkən yaşlardan bəri insan həyatında mühüm rol oynamışdır. Qədim dövrlərdə heyvan sümüklərindən, dəniz qabığından, daşdan və müxtəlif metallardan hazırlanmış əşyalar bədəni bəzəməklə yanaşı, eyni zamanda, qüdrət, məqam və inancın göstəricisi idi. Tarixi prosesində müxtəlif məqsədlərə xidmət edən aksesuar gələcəkdə moda aləmində fəal rol oynamışdır. Aksesuar dedikdə, ilk ağıla estetik töhfə verən çantalar, zinət əşyaları, saatlar, gün eynəkləri, şərflər, pul kisələri və paltarı müşayiət edən funksional tamamlayıcılar gəlir. Moda dünyasının vazkeçilməz elementinə çevrilən aksesuarların mövsüm trendləri, xüsusilə, xanımlar tərəfindən maraqla gözlənilir və yaxından izlənilir.

Böyük, kiçik, şəffaf və ya toxunmuş, dəri, saman çantalar, daşlı, üçbucaqlı, oval çərçivəli gün eynəkləri, baş bantları, şişirdilmiş və ya minimal zərgərlik mütləq moda dinamikasında öz yerini tapır. Uyğun konseptdə düzgün kombinasiyalar sizi qəşəng və seçilən göstərə bilər.

Aksesuar və geyim birləşməsində edilən seçimlər də vizual qavrayışda fərqlər yaradır. Məsələn, sadə bir paltarla istifadə edilən şişirdilmiş boyunbağı daha diqqət çəkən və hakim təsir yaradır, zərif boyunbağı isə daha sadəlövh bir xarakterin göstəricisi kimi qəbul edilə bilər. Mirvari sırğa qadın, dəri bilərzik kişi üçün ola bilər. Aksesuar seçimlərində trendlər qədər fəsillər də vacibdir. Yayda gün eynəyi, rəngli qolbaqlar, xalçalar, açıq rəngli çantalar, saç bantları, qışda isə beretlər, əlcəklər, tünd rəngli çantalar, şərflərdən istifadə edilir. Aksesuar geyim qədər vacibdir. Çünki insanın üslubunu əks etdirir. Stil sahibi olmağın yolu düzgün aksesuarları seçməkdən və düzgün kombinasiyalar, eləcə də paltarlar hazırlamaqdan keçir.

Parıldayan zinət əşyaları, bahalı ayaqqabılar, dəbdəbəli saatları və dəbli aksesuarı kim sevməz? Bədənimizi bəzəmək vəsvəsəsi əhəmiyyətsiz bir fəaliyyət deyil. Niyə özümüzü bəzəmək üçün bu qədər pul xərcləyirik?

Qısa cavab: Çünki biz zərgərlikdən ünsiyyət vasitəsi kimi istifadə edirik. Məsələn, nişan üzüklərini götürək. Bir çox ölkələrdə sol əlin adsız barmağındakı parıltı, sahibinin evlənmək vəd etdiyini bildirir. Barmaqdakı bu üzük müəyyən bir mesaj daşıyır.

Əslində, geyindiyimiz hər şey ətrafa mesaj göndərir. Geyinmək üçün seçdiyimiz paltar və ya taxmaq üçün seçdiyimiz zinət əşyaları ətrafımıza kim olduğumuza dair mesajlar verir: İdmançı, həkim, rəssam, ana və s. Geyim və aksesuarlarla bağlı bəzi seçimlər şüurlu şəkildə edilir, digərləri isə çox mənalı deyil - lakin geyindiyimiz və ya geyindiyimiz hər şey sanki bir hekayə danışır. SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert və psixoloqların fikirlərini öyrənib.

Məsələ ilə bağlı yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov münasibət bildirib: "Qızıl və zinət əşyaları hər zaman insanları, xüsusən də, xanımlarımızı maraqlandırıb. Bilirsiniz ki, İslami dəyərlərə görə kişi xeylağı gümüş, qadın xeylağı isə qızıl-zinət əşyalarından istifadə edə bilərlər. İslam dini baxımdan deyilir ki, "siz səhrada, yaxud bir yerdə səfərdə dünyanızı dəyişən zaman sizin cənazənizi yuyub və kəfənə alan insanın borcunu ödəmək üçün sizdə qızıl üzük olmalıdır". Daha doğrusu, sizdə gümüş üzük olmalıdır ki, kiməsə borclu qalıb bu dünyadan köçməyəsiniz.

Qızıl dünyada az tapılan ən qiymətli metallardan sayılır. İndi hal-hazırda elektronikanın, kompüter texnologiyalarının, internetin, nano texnologiyalarının inkişafı ilə ələqədar olaraq qızılın dəyəri daha da artıb. Çünki onların hər birində qızıldan istifadə edilir.

İnsanların özlərinin sağlamlığına da qızılın çox müsbət təsiri var. Psixoloji təsiri odur ki, insan əlində qızıl-zinət əşyaları, var-dövlət olan zaman özünü daha rahat, daha dinc və gələcəyə nikbin baxır. Amma bioloji tərəfdən də insanın bir çox bədən əzalarının, gözünün nurunun artırmağından tutmuş nəbzinin normallaşmasına qədər, təzyiqin normallaşmasına qədər qızılın əhəmiyyəti çox böyükdür.

Üstəlik, qızıldan əvvəllər diş materialı kimi istifadə edilirdi. İndi də edilir, amma qabaq dişlər yox, arxa dişlərə istifadə edilir. Çünki qızıl elə bir metaldır ki, yumşaq olsa da, onu qida qəbul edən zaman demək olar ki, çox az fəsad verir.

Elə insanlar var ki, ümumiyyətlə, qızıl xəstələridir. Bu, onlarda artıq bir azar, xəstəlik halını alıb. Bu, psixoloji bir asılılıqdır. Yəni, qızıldan asılılıqdır. Yəni, mən başqalarından fərqlənirəm, mənim başqalarından var-dövlətim çoxdur, qızılım çoxdur deyib özünü seçmək istəyir. Belə insanlar intellekt cəhətdən zəif olanlardır, amma xəsislik baxımından, var-dövlət hərisliyi baxımından ətrafdakılara özünü göstərən şəxslər belə sayılır.

Bütövlükdə götürəndə isə dünyada indi zinət əşyaları kimi qızıldan istifadə ancaq şərq ölkələrində qalıb. Siz qərb ölkələrində ya həddindən artıq bahalı, yəni, qiyməti 100 mindən başlayıb milyonlarla bitən müəyyən zinət əşyalarını görəcəksiniz. Onlar da çox az saydır. Elitar təbəqənin nümayəndələri və elit tədbirlərdə, ildə bir dəfə, iki dəfə keçirilən tədbirlərdə, yaxud şou əhli televiziya və kino ulduzları, tanınmışlar tərəfindən taxılan və istifadə edilən əntiq və yaxud modern zinət əşyaları kimi istifadə olunur. Amma şərq ölkələrində ağına-bozuna baxmadan hər kəs kasıbından tutmuş orta və varlı təbəqəsinə qədər, xüsusən də, qadınlar, yaşlı qadınlar qızıldan gen-bol istifadə edirlər. Məsələn, Hindistandır, Türkiyədir. Onlar toylarda da qızıl salırlar, o cümlədən də digər ölkələrdə də belədir.

Müasir dövrdə artıq gənclər qızıla bir az fərqli baxırlar. Əvvəllər qızıl, brilliant və s. zinət əşyaları onlara yığılırdısa, son vaxtlar bizim insanlar da artıq ağıllanıblar. Min manata aldığı hər hansı bir üzük və yaxud zinət əşyasını sonra vəziyyət ağır olanda, satmaq lazım olanda sən heç onu 200 manata da satmırsan. Onun qaşı brilliantdandır, yaxud ondan asılı olmayaraq onu lom kimi götürürlər. Ona görə də insanlar da artıq qızıl alarkən bunlara fikir verməyə başlayıblar. Yəni, ağırlığına görə qızıl əşyasını alırlar. Azərbaycanda qızıla, zinətə olan həm həddindən artıq aşırı maraq qədimdən bizdə var idi, indinin özündə də var. Yəni, xəzinə toplamaq, bir pulun artığını hər hansı işə yönəltməmək və qızıl şəklində ölü kapital kimi gizlətmək kimi xəstəlik bizdə hələ də qalıb. İkinci məsələ isə toylarda qızıla həddindən artıq aludə olmaqdır. Bilirsiniz ki, bizdə evlənən adamlara bəzən 100 minlik qızıl alınır, amma ev alınmır.

Bir gün toyda, nişanda nümayiş olunar deyə o gənclər üçün qızıllar aparılır sonra altı aydan sonra görürlər ki, qızılla xoşbəxtlik mümkün deyil, altı aydan sonra da o ailələrin çoxu dağılır. Çünki bahalı qızıl gətirən qız tərəfdən də böyük cehizlər istəyir. Ona görə də gənclərimiz problem yaşayırlar. Bu məsələdən də qurtulmaq lazımdır. Yəni, qızıla verilən pul passiv kapital saxlamaqdansa daha aktiv işlək bir kapitala mənsub olmaq, sahib olmaq daha düzgündür. Ona görə də biz məsləhət görməzdik müasir dövrdə qızıla çox hərislik, qızıla çox maraq göstərmək, sözsüz ki, bir hissəsini hər hansı bir əlində vəsait varsa onun bir hissəsini qızıl formasında saxlaya bilərsiniz".

Psixoloq Zeynəb Eyyubova məsələnin psixoloji yanlarına toxunub: "Cəmiyyətdə yaranmış bəzi inanclar var. Bu inanclara inananlara və inanmayanlara fərqli təsir göstərir. Məsələn, belə bir deyim var ki, qızıl qadına xeyirdirsə, kişiyə ziyandır və ya bəzi qadınlar deyir ki, qızıl taxanda ağırlığım götürülür və s. Bu, əslində, inanc sistemi ilə əlaqəlidir. Yəni, insanlar hər hansı bir daşa da bunu edə bilər. Misal üçün zümrüd daşı olsun.

Cəmiyyətdə yayılanlardan yaqut, əqiq, daha sonra bəzi tanınmayan bizdə olan daşlardır. Məsələn, strin daşı indi hal-hazırda məşhurlaşıb. Həmçinin, aqat və s. var. Bunların da bəzi təsirlərinin olduğunu deyirlər. Amma bu, birmənalı olaraq belə bir şey deyil ki, misal üçün kəhrəba daşı hər kəsə xeyir edəcək və ya qızıl hər kəsə xeyir edəcək. Sadəcə, inancdır. Bəzi insanlar deyir ağırlığımı götürür, bəzi insanlara allergiya verə bilər. Yəni, baxışlar müxtəlifdir".



***Ayşən Vəli***

# ŞUŞA İLİ - ZƏFƏRİMİZİN TARİXİ






*FUAD HEYDƏRLİ,*
*YAP Səbail rayon təşkilatının məsləhətçisi*

**Hər il olduğu kimi, yenicə başladığımız 2022-ci ilimiz də ilk gündən uğurlu oldu. Ali Baş Komandanımız, Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa İli" elan etdi. 5 yanvar 2022-ci ildə isə Prezidentin 2022-ci ilin "Şuşa İli" elan olunması haqqında Sərəncamı ilə bu qərar hüquqi qüvvəyə mindi. Dövlət başçısı xalqa müraciətində bildirdi: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm".**

Bu qərar dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbini fərəh, böyük qürur və iftixar hissi ilə doldurdu. Qeyd edim ki, Prezident İlham Əliyev 7 may 2021-ci il tarixli sərəncamı ilə zəngin və şanlı tarixi keçmişə malik Şuşa şəhəri mədəniyyət paytaxtı elan edildi. Bunun ardınca, 2022-ci ilin Şuşa İli elan edilməsi həm tarixi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb edən qədim şəhərimizə verilən ən böyük dəyərin göstəricisidir.

44 günlük Vətən müharibəsi başladığı gündən rəşadətli ordumuzun ardıcıl qələbələrindən sonra hər kəs həyəcanla Şuşa xəbərini gözləyirdi. Müzəffər Ali Baş Komandanın qətiyyətli və prinsipial mövqeyi milləti belə düşünməyə vadar edirdi. Hələ 2020-ci ilin oktyabr ayında, döyüşlərin qızğın getdiyi günlərdə Prezident İlham Əliyev xarici media nümayəndələrinə verdiyi müsahibə zamanı bu məsələyə toxunmuşdu: "Şuşasız bizim işimiz yarımçıq qalar".

Bəli, məhz Vətən müharibəsinin 43-cü günündə millətin bu arzusu reallaşdı. 2020-ci il noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər günü kimi tariximizə yazıldı. Prezident İlham Əliyev 2020-ci il 3 dekabr tarixində hər il noyabrın 8-nin ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi və həmin günün bayram günləri sırasına daxil edilməsi barədə Sərəncam imzaladı. 2022-ci ilin "Şuşa İli" elan olunması isə Azərbaycanın inkişafında yeni bir səhifə olacaq. İl təkcə Azərbaycanın dilbər guşələrindən biri olan Şuşanın adı ilə bağlı deyil, bu işğaldan azad edilən torpaqların bərpası deməkdir. Bu il artıq ilk məcburi köçkün ailələri öz dədə-baba torpaqlarına qayıdacaqlar. Ağdam və Cəbrayılla yanaşı digər rayon mərkəzlərinin də yeni planla əsası qoyulacaq. Kommunikasiyaların bərpası davam etdiriləcək. Bir çox kəndlərimizin, şəhərlərimizin əsası qoyulacaq və il ərzində onların artıq məşkunlaşdırılması baş verəcək. Şuşanın isə sözün əsl mənasında mədəniyyət paytaxtı kimi formalaşmasına dövlət böyük diqqət ayıracaq. Çünki Şuşa bizim kimliyimizdir, Şuşa bizim adımızdır və Şuşada beynəlxalq tədbirlərin, ilk növbədə mədəniyyət tədbirlərinin keçirilməsi geniş vüsət alacaq. Füzuli Beynəlxalq Aeroportunun işə salınması işğaldan azad olunan və bərpa edilən ərazilərlə yanaşı, Şuşa şəhərinin də turist marşrutlarına əlavə edilməsinə şərait yaradacaq. Həmçinin, bu il Şuşanın əsasının qoyulmasının 270 illik yubileyi tamam olur. Bunun özü Qarabağa, Şuşaya Azərbaycan xalqının bağlılığının növbəti bir göstəricisidir.

İllər öncə Ulu Öndər Heydər Əliyev Qarabağın tacı olan Şuşa şəhərinin hər bir azərbaycanlı üçün dəyərini qiymətləndirərkən demişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur". Bu, Şuşanın bizim üçün nə dərəcədə dəyərli olduğunun böyük ifadəsi idi.

28 illik həsrətdən sonra Şuşa azadlığına qovuşanda isə Xilaskar İlham Əliyev Şuşanı belə dəyərləndirdi: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Bu gün isə Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli. Bugünkü Şuşanın yenidən qurulması isə İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Odur ki, yenicə qədəm qoyduğumuz 2022-ci ilin "Şuşa İli" elan edilməsi xalqımız üçün çox əlamətdar hadisə olmaqla, həm də ölkəmizin uğurları daha da artacaq, xalqımızın inkişaf və intibahı sürətlənəcək. Bütövlükdə, qalib və qüdrətli Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni hədəflərə doğru əmin addımlarla bundan sonra da irəliləyəcək, ölkəmiz üçün siyasi, iqtisadi, ictimai və mədəni sahələrdə, eləcə də diplomatiya müstəvisində mühüm - yeni və daha möhtəşəm uğurlara imza atacaq.

## Pandemiya mənfiləri ilə yanaşı bizə nə verdi?

**Pandemiya böyük ərazidə, məsələn bir neçə qitədə yayılıb, böyük sayda insanlara təsir edən epidemiyaya deyilir. Eyni zamanda epidemiya prosesinin də zirvəsi hesab olunur. Pandemiya şəraitinin olması üçün bir xəstəlik və ya vəziyyət geniş yayılması və ya bir çox insanı öldürə bilməsi ilə yanaşı, həmçinin yoluxucu olmalıdır. Artıq bir neçə ildir ki, biz də koronavirus pandemiyası şəraitində yaşayırıq. Bunun isə xəstəlikdən əlavə olaraq bir çox mənfi və müsbət cəhətləri mövcuddur. Biz də bu mövzunu araşdıraraq, sosioloq və psixolqun fikirlərini öyrənməyə çalışdıq.**

Məsələ ilə bağlı SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu bunları deyib: "Artıq bir neçə ildir ki, pandemiya şəraitində yaşayırıq. Bunun isə təbii olaraq mənfi yönləri həddindən çoxdur".



Onun sözlərinə görə, ən böyük mənfisi isə insanların səhiyyə xidmətindən demək olar ki, məhrum olmasıdır: "Hazırda bir çox insan qorxusundan həkimə də gedə bilmir ki, orada xəstəlik tutar. Pandemiya hər bir sahəyə az ya da çox dərəcədə ziyan vurub. Amma bütün bunlarla yanaşı müsbət tərəfləri də oldu. İnsanlar artıq xəstəliklərdən qorunmaq qaydalarını öyrəndilər. İstər-istəməz bir çox insan evə qayıtdıqda əllərini dərhal yumaq vərdişlərinə yiyələnib. Eyni zamanda bir çox sahələr onlayn olaraq işləməyi öyrəndilər. Bu proses olduqca təkmilləşdi. Bu dövr ərzində "Zoom", "MS Teams" proqramları vasitəsilə bir çox konfranslar həyata keçirilib. Bunları pandemiyanın qazandırdığı müsbətlər kimi qəbul etmək olar.

Psixoloq Vüsalə Əmiraslanova: "Ümumiyyətlə pandemiya şəraiti insanlar üçün yeni bir dəyişim oldu. Yəni epidemiya şəklində olduqda insanlar bilirlər ki, bu xəstəlik müəyyən ərazidə var digərində isə yoxdur. Bununla da özlərini qoruya bilirlər. Lakin pandemiyanın olması isə artıq daha çox kütləvi xarakter daşıyırdı".

Onun sözlərinə görə, bu da öz növbəsində insanları daha çox təşvişə saldı: "İnsanların bu prosesə adaptasiyası da uzun müddət tələb etdi. Hətta bir çox insan bir müddət bu xəstəliyi qəbullanmadı. Xəstəliyə yoluxmadığı halda stress və təşvişə düşüb özünə əlavə xətər yetirən ziyan vuran insanlar da oldu. Elə insanlar oldu ki, hələ xəstəliyə tutulmamış keçirtdiyi həyəcan nəticəsində ürəkçatışmamazlığı, digər müəyyən narahatçılıqlar yarandı. Hazırda da pandemiya şəraitinin davam etməsi insanlarda qeyri-sabitlik yaradır. Eyni zamanda təhsil sahəsində də irəliləyişin olması təhsil müəssisələrinin açılması istiqamətində də müəyyən addımlar atılıb. Lakin xəstəliyin hələ də davam etməsi körpələrimizin də sağlamlığına təsir edir".

*Səbinə Hüseynli*

## HƏRBİ EKSPERT:
## Ermənistan tərəfindən humanist addımın gözlənilməsi mənasızdır

***"Azərbaycanın Ermənistan tərəfindən mina xəritələrini tələb etməsi tamamilə beynəlxalq konvensiyanın formalarına uyğundur". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov bildirib.***

Onun sözlərinə görə, ümumiyyətlə mina xərtələrinin verilməsi sivil dövlətə və cəmiyyətə məxsus bir davranışdır: "Lakin Xocalı soyqırımını törədən və bizim tarixi abidələrimizi, yaşayış yerlərimizi dağıdan bir dövlətdən bu humanist adımı gözləmək çox mənasızdı.



Ermənistan tərəfinin bizə verdiyi xəritələrın üzərində müəyyən araşdırmalar aparılmışdır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, həmin xəritələrin yalnız 25%-i etibarlı mənbə ola bilər. Ermənistanın bizə verdiyi mina xəritələri ilə biz işləyə bilmirik. Hal-hazırda işğaldan azad olunmuş ərazilərimizin minadan təmizlənməsi işində bizə qardaş Türkiyənin mütəxəssis qrupları və Rusiyanın fövqəladə hallar nazirliyinin əməkdaşları yardım edir. Ümumiyyətlə minalı sahələrin təmizlənməsi çox bahalı və bir o qədər də çətin bir prosesdir. Mən deyərdim ki, həmin sahələrin minadan təmizlənmə xərci, minanın istehsal xərclərindən bahadı. Lakin bunlara baxmayaraq Azərbaycan tərəfi əraziləri minadan təmizləmək üçün uzaq məsafədən idarə olunan mina təmizləmə aparatı almışdı. Biz eyni zamanda bu məsələ ilə bağlı kurslar təşkil etmişik".

# Soyuqlardan necə qorunmalıyıq?

**Fəsillər Yer oxunun əyilməsi və onun il boyu Günəş ətrafında hərəkəti səbəbindən baş verir. Ağır qış şəraitinin qapımızı döydüyü bu günlərdə sağlamlığımızı qorumaq üçün daha çox diqqətli olmaq lazımdır.**

Xüsusilə yaşlılar, ürək və ağciyər xəstələri, xərçəng müalicəsi alanlar, qaraciyər çatışmazlığı, böyrək çatışmazlığı olanlar, azyaşlı uşaqlar immun sistemi zəif olduğu üçün soyuq, qarlı, küləkli və sərt havalarda daha asan xəstələnirlər. Mütəxəssislər soyuq havaya necə hazırlaşmaq lazım olduğunu belə izah ediblər:

**1 - Çöldə keçirəcəyiniz vaxta diqqət edin**

Əvvəla, soyuq havaya nə qədər hazırlıqlı çıxsaq da, çöldə olacağımız vaxtı mümkün qədər qısa tutmağı planlaşdırmalıyıq. Əslində soyuq hava immun hüceyrələrinin sayını artıraraq mikroblara qarşı müdafiə sistemimizi gücləndirir. Ancaq soyuqda nə qədər çox qalsaq, bədənimizin davamlılıq qabiliyyəti bir o qədər tükənir və xəstələnməyə meyilli oluruq.

**2 - Kələm kimi qat-qat geyinmək bədən istiliyimizi saxlamağı asanlaşdırır**

Gün ərzində girdiyimiz isti mühitlərdə tərləmənin qarşısını almaq və ətraf mühitə uyğunlaşmaq üçün bir və ya iki qalın sviter yerinə qat-qat geyinilən paltarlar lazım olduqda nazikləşdirilə bilər. Əks halda üzərimizə yığılan tər çölə çıxarkən soyuqluq və əzələ sərtliyinə səbəb ola bilər. Neylon əsaslı hava keçirməyən parçalar yerinə tərləmənin qarşısını alan və islanmaqdan qoruyan paltarlar geyinilməlidir.

**3 - Bədəninizin həssas hissələrinə diqqət yetirin**

Burnumuzu, qulaqlarımızı, başımızı, əllərimizi, ayaqlarımızı və barmaqlarımızı, yəni soyuqdan ən çox həssas olan yerləri iki qat əlcək, corab və başlıqla daha yaxşı qorumalıyıq. Başın qorunmaması donma nəticəsində sinüzit, orta qulaq və tonzillitə səbəb olur.

**4 - Ağciyər və ürək xəstələri soyuq havalarda sağlamlığınıza daha çox diqqət yetirin**

Xüsusilə ağciyər və ürək xəstəlikləri olanlar mümkünsə soyuq havada çölə çıxmamalı, çölə çıxarkən bu ehtiyat tədbirlərinə daha çox diqqət etməlidirlər. Ağciyər problemi olanların burnundan və ağzından soyuq hava udmaq soyuqdəymə, qrip, qrip və daha da əhəmiyyətlisi pnevmoniya riskini artırır. Bu səbəbdən qalın şərflər, xizək maskası kimi paltarlar və qalın başlıqlardan istifadə edilməlidir. Ürək-damar xəstələri bilməlidirlər ki, bədəndə soyuqdəymə nəticəsində yaranan stress hormonunun artması, ani damar daralması nəticəsində infarkt və insult riski yarana bilər. Bir neçə qat corab geyinərkən, ayaqqabı vurma problemini yaşamamaq üçün diabet xəstələrinə dar ayaqqabı geyinməmələri tövsiyə olunur.

5 - Yüksək qan təzyiqi xəstələri təcili dərmanlarınızı sizinlə aparırlar

Qan təzyiqi yüksək olanların burun, qulaq, baş, əl, ayaq və barmaqlardakı kapilyarların daralması nəticəsində təzyiqlərinin arta biləcəyini bilərək həkimə müraciət etmələri və təcili dərmanlarını yanlarında götürmələri tövsiyə olunur.

**6 - Gözlərimizi unutmayaq**

Bundan əlavə, sizinlə olmalı olan materiallardan biri qar gözlükləridir. Bu göz quruluğunun və qızartıların qarşısını alır.

**7 - Maye qəbulu çox əhəmiyyətlidir**

Soyuqda uzun müddət kifayət qədər maye qəbul edilmədən qalmaq orqanizmin ekstremal nöqtələrində susuzluqdan kapilyarların daralmasına səbəb olur ki, bu da həm soyuqdəymələrə, həm də mikrobların çıxarılması üçün lazım olan burun axıntısının və bəlğəmin qalınlaşmasına səbəb olur. Qəhvə və çay kimi sidikqovucu xüsusiyyəti olan içkilər əslində burun və boğaz ifrazatını qurutduğu üçün əvəzinə çökə, qızılgül, nanə-limon çayının qəbulu məsləhət görülür.



**8 - Alkoqol qəbuluna diqqət edin**

Alkoqol isə kapilyarlarda burun və yanaqlarda istilik hissi yaradır, bədən hərarətinin yüksəlməsi hissinə səbəb olur. Soyuqdəymə və donma riskini artırır. Həm də sidiklə susuzluğa səbəb olur.

**9 - Siqaret çəkməyin**

Burun, boğaz və ağciyərlərin tənəffüs yollarında çoxlu toz və mikrobların daxil olmasına mane olan incə tüklər var. Küləkli və soyuq havada ən çox ehtiyac duyduğumuz zaman siqaret çəkməyə davam etmək tənəffüs yolları xəstəliklərini çağırır.

**10 - İdmanı laqeyd qoymayın**

Daimi idmanın bir çox faydası ilə yanaşı, soyuq hava səbəbi ilə soyuqdəymə və qrip xəstəliklərinə qarşı müqaviməti artırdığı bilinir. Müntəzəm olaraq idman edənlərin hər ikisi bu xəstəliklərdən yüzdə 50 daha az əziyyət çəkir və yaxalananda yorğunluq hiss etmirlərsə, idmana davam etməklə yüzdə 30 daha tez sağalırlar. Soyuqda idman etmək bu baxımdan daha faydalı görünür. Ancaq buna öyrəşməyənlərin idman zallarında məşğul olması tövsiyə olunur.

**11 - Maşınla yola düşəcəklər üçün xəbərdarlıq**

Avtomobildə ən az 2 gün kifayət qədər su və yemək, qalın ədyal, təcili yardım dəsti olması, soyuqda donmamaq üçün hərəkətsiz qalmamaq, xüsusilə də əl və ayaq barmaqlarını işlətmək faydalı hesab edilir.

**12 - Sürüşmək və yıxılmamaq üçün diqqətli olun**

Qar, buz, yağış, xüsusilə yaşlılar üçün düşmə səbəbiylə asanlıqla qırıqlara səbəb ola bilər. Çölə çıxmalı olanların sürüşməyən ayaqqabı geyinmələri, əllərində əsa gəzdirmələri, kiçik addımlarla getmələri, mümkünsə yanında birinin olması tövsiyə olunur. Düşərkən özünüzü qorumaq üçün əlləriniz cibinizdə olmamalıdır.

**13 - Hər şeyin başlanğıcı: Qidalanma**

Portağal qreypfrut, qırmızı bibər, qızılgül, boza, kefir, qatıq, sirkə, C vitamini ilə zəngin turşu kimi fermentləşdirilmiş faydalı bakteriyalarla zəngin qidalar və heyvan zülalları üçün xammal olan balıq, ət və süd məhsullarının istehlakı immunitet sistemi, mikroblara və soyuqlara qarşı müqaviməti artırır. Şəkərli qidalar immunitet sisteminin mikroblarla mübarizəsini çətinləşdirir, düyü, kartof, xəmir, şirniyyat, şərbət və sərinləşdirici içkilər bu baxımdan zərərli olaraq görülür.

**14 - D vitamininin əhəmiyyəti**

Ən əsası günəşi görmədiyimiz üçün qışda ən çox tükənən və xəstəliklərdən qoruyan D vitaminimizi qan səviyyənizi ölçüb həkimimizə müraciət edərək əlavə etməlisiniz.

**15 - Nizamlı yuxu immunitet sistemi üçün vacibdir**

7-8 saat keyfiyyətli yuxu immun sistemimizi gücləndirir və xəstəliklərə qarşı müqavimətimizi artırır. Gecə yuxusu gündüz yuxusu ilə əvəz olunmur.

Avropanın hər tərəfi bütün fəsillərdə gözəldir, bu bir faktdır. Bununla belə, Milad qeyd etmələri, xizək sürmə, dağ zirvələrinə dırmaşma kimi gözəl fəaliyyətlər təklif edən bir neçə Avropa ölkəsi var. Gəlin bu ölkələrə nəzər salaq.

**1. Çexiya**

Şübhəsiz ki, siz Praqada ən xüsusi ”Milad bazarı” ənənəsini yaşayacaqsınız. İlin bütün fəsillərində, xüsusilə qışda, Miladda gözəlliyi ilə doymayan bu unikal ölkədən həzz alın.



**2. Hollandiya**

Hollandiya dedikdə ağlımıza ilk növbədə Amsterdam və onun bütün fəsillərdə gözəl havası və atmosferi gəlir. Amsterdam qeyd etmələri, Milad bazarı və Milad zamanı xüsusilə vacib olan bir çox küçə bəzəkləri ilə qışda seçilən bir şəhərdir. Bundan əlavə, qış vaxtı Amsterdama çox yaxın olan Utrext şəhərini ziyarət etməlisiniz. Eyni zamanda, Dordrecht öz adət-ənənələri ilə bayram edən bir şəhərdir.

**3. İslandiya**

İslandiya fotoqrafiya həvəskarları üçün cənnətdir. İslandiyanın hər tərəfi sənət və təbiət möcüzəsidir. Həmişə soyuq olan ölkə olmaqla yanaşı, qışın gəlişi ilə soyuqdan da payınızı almağınız qaçınılmazdır. Ancaq



qarda donmuş şəlalələr, tutqun hava, bəlkə də rastlaşacağınız şimal işıqları ilə gözəl bir bayram keçirəcəksiniz.

**4. Fransa**

Fransa turistləri qışda məşhur şəhərlərindən çox xizək kurortlarında qarşılayan ölkədir. Xüsusilə Balkan ölkələrindən qış turizmini daha sərfəli qiymətə təqdim etməsi üstünlük üçün əlavə səbəbdir. Fransanın çox soyuq olmayan havası da cazibədar olmalıdır.

ARAŞDIRMA

*Ardı Səh. 11*

# Soyuqlardan necə qorunmalıyıq?

Əvvəli Səh. 10

**5. Norveç**

Norveçin həmişə sevilməsinin bir səbəbi var. Ancaq qışın ayrı-



ayrılıqda sevilməsinin daha tutarlı bir səbəbi var. Dağ yamaclarında yığılan qarlar arasında tək mərtəbəli və dam örtüyü olan evləri ilə Norveçin mənzərələri tam rahatlıq verir. Ailəniz və ya dostlarınızla gözəl bir həftə sonu keçirmək üçün vaxt planlaşdırmağa belə ehtiyac yoxdur. Hava çox təmiz olduğu üçün yağan qarı çox aydın izləyə biləcəksiniz, həm də qışın bəzi aylarında yerli əhalinin dərman kimi istifadə etdiyi köpük şəklində qar yağır. Siz də onların qışa özəl yeməklərini dadmalısınız.

**6. Kosovo**

Kosovo, Serbiya və Makedoniya kimi Balkan ölkələri qışda çox şirin ola bilər. Bundan əlavə, Türkiyəyə ucuz uçuşlar bu ölkələri görməyi sizin üçün cəlbedici edir. Balkan ölkələrində xizək sürmə və bəzi digər qış idman növləri eyni vaxtda edilə bilər.

**7. Belçika**

Milad vaxtı Belçikada fərqli bir atmosfer var. Böyük meydanları ilə



məşhur olan Brüssel, Bruges, Gent kimi şəhərlərdə qurulan marketlər və insanların həyəcanı Belçikanı cazibədar edir. Onların pivələri xüsusi seriyaya girdiyi bu dövrdə süfrənizi fərqli dad və ətlərlə bəzəyər. Bundan əlavə, ən gözəl şəhər olan Bruges qışda görülməli və hər an ziyarət edilməli bir şəhərdir. Belçikada qar çox yağmır, yağarsa insanlar özlərini çölə atırlar. Bu, Aralıq dənizi insanı üçün qar görmək kimi böyük bir sevincdir.

**8. İngiltərə**

Mançester və Birmingemdə qışda turistlər üçün bir çox fəaliyyət var. Çox soyuq havalar sarayların bəzədilməsinə səbəb olur. Belə ki, qış mövsümündə gələn turistlərin daha çox içəri baxmasına



şərait yaradırlar. Bu arada, İngiltərədə Milad vaxtı bayramlar bir az daha uzanır, ona görə də əlavə əyləncələr, yerli rəqslər, geyimlər daha əlçatan olur.

**9. Avstriya**

Avstriya qış aylarında kəskin soyuqlar nəticəsində turistləri itirdiyi üçün qış aylarında aviabiletlərə endirimlər edirdi. Siz də bundan yararlanıb Avropa daxilində səyahət edən və bu gözəl mənzərələri tutanlardan biri ola bilərsiniz.

**10. Şotlandiya**

Şotlandiya sizin üçün bahalı bir səyahət ola bilər, lakin bu fürsəti mütləq izləməyə dəyər! Qışda Şotlandiya çaylarının donması dağlardan xizək sürməyi çaylara gətirir.

**11. İsveç**

Qışda İsveçin şimal işıqlarını görmək hər kəsin arzulayacağı gözəllik növüdür. Bir tərəfdən, Stokholmun məşhur əyləncə parkları Milad vaxtı şəhərin ən əhəmiyyətli mərkəzində qurulur. Süni qarın yağdığı 24 saatlıq festivallarla İsveç xüsusilə Milad vaxtı görülməlidir.

**12. Macarıstan**

Xüsusilə Budapeştin termal turizmi belə qarlı ölkədə yaxşı gedir. Macarıstanın ən gözəl hamamlarını isti bulaqların və hamamların məşhur olduğu Budapeştdə tapa bilərsiniz. Təbii ki, hamam, termal su və ya termal hamam deyil. Bu həzzi mütləq yaşamağa dəyər.

## Dünyanın ən soyuq ölkələri

Dünyada soyuqluğu ilə məşhur olan ölkələri araşdırdıq. Bu bölgələrdə sağ qalmaq cəsarət tələb edir. O qədər ki, havanın temperaturu - 50 və ya daha çox düşə bilər.

**1. Rusiya-Oymyakon-Yakutsk**

Artıq soyuq iqlimi olan Rusiyanın iki çox soyuq bölgəsi Oymyakon və Yakutskdur. Bu iki sahədə bir az diqqətsizlik bəlkə də sonunuzu hazırlaya bilər. Bu ayda hava - 40 dərəcəni görür. Ən soyuq ay yanvardır. Bu hava şəraitinə baxmayaraq şəhərin 200 min əhalisi var. Havanın temperaturu çox aşağı olduğundan rayonda balıq və dondurulmuş heyvanların istehlakı çox yüksəkdir. Qəsəbələrdə nəq-



liyyat vasitəsi olan sakinlər üçün qızdırılan dayanacaqlar mövcuddur. Qış fəsli uzun olan şəhərdə ən isti günləri iyul ayında yaşanır. İyulda dərəcələr 19 dərəcəni göstərir. - 40 və - 50 isə orta temperaturdur.

Oymyakon: Dünyanın ən soyuq məskunlaşdığı yer kimi ad çıxarıb. 800 nəfərin yaşadığı kənddə havanın temperaturu - 72 dərəcə ilə ölçülür.

**2. Qrenlandiya**

Yayda rəqəmlər ən çox "- 7" göstərirdi. Qışda isə "- 40" göstərir. Şəhər mərkəzi adanın qərb sahilində qurulmuşdur. Xarici siyasətdə Danimarkadan asılı olan Qrenlandiyada 57 min insan yaşayır. Adətən yayda ziyarət edilən Qrenlandiyada Skandinaviya mənşəli insanlar yaşayır. Yayı soyuq olan ölkələr sırasındadır. Dörd fəsildə qışı yaşayır. Dünyanın ən böyük adasıdır.

**3. İslandiya**

Şimal qütbünə yaxın olmasına baxmayaraq, Gulf Stream cərəyanı səbəbindən ölkədə qış digər şərq ölkələri ilə müqayisədə müla-



yim keçir. Yayda 29 dərəcəyə qədər yüksələn havanın temperaturu "qışda - 49 dərəcə"yə düşüb. İyun ayında günəş 18 gün batmır.

**4. Kanada**

Şimal qütbünə yaxın olan Kanadada qış iqlimi kifayət qədər sərtdir. Qışda dərəcələr "- 40 ilə - 45" dərəcə arasında dəyişir. Təbii gözəllikləri ilə görənlərin diqqətini çəkən Kanadada yay fəsli 35 dərəcəyə qədər çata bilir.

**5. Alyaska**

Bu, Amerika qitəsinin ən böyük ərazisi və ən az əhalisi olan bölgəsidir. Alyaska 1867-ci ildə Amerika tərəfindən Rusiya İmperiyasından alınıb. Alyaskada yaylar çox sərt olmasa da, qışda dərəcələr - 30-a qədər qalxır. Ən soyuq ölkələrin siyahısı varsa, birinci yerdə olacağı-



nı deyə bilərik.

**6. Qazaxıstan**

Qazaxıstan həm qış, həm də yay fəsillərinin çox sərt keçdiyi ölkələrdən biridir. Xüsusilə dərə və düzənliklərdə yerüstü iqlim xüsusiyyətləri müşahidə edilir. Temperaturlar bölgədən bölgəyə dəyişir. Müvafiq olaraq, bəzi rayonlarda qışda "- 5" dərəcəni göstərir, bəzi rayonlarda isə "- 20" dərəcəyə enir. Eyni zamanda, qışda əsən qasırğaya bənzər küləklər



şəraiti daha da çətinləşdirir.

**7. Finlandiya**

Qış mövsümündə bütün Finlandiya ağ yorğanla örtülür. Yayda Günəş çox qısa müddətə batır və demək olar ki, batmır, xüsusən də iyun ayında. İqlim onsuz da sərtdir, yayda temperatur orta hesabla "- 10"-a yaxındır. Arktika təbiəti və Şimal işıqları ilə Finlandiya hər kəsin həyatında bir dəfə getmək istədiyi yerlər sırasındadır. Dünyanın ən soyuq ölkələri sırasındadır.

**8. Antarktida**

Antarktida dünyanın ən quru və ən soyuq ərazisidir. Qitənin bəzi



ştatlarında tədqiqat stansiyaları var. Bu faizə təxminən 1000 nəfər daxildir. Qitənin bəzi hissələrinə əsrlərdir yağış yağmadığı müəyyən edilib. İqlim şəraitinə görə heyvanlar qitənin sahillərində yaşayır. Temperaturlara baxdığımızda -60 ilə -80 arasında ən aşağı temperaturu yaşayır. Ən yüksək temperatur - 12 dərəcə hesablanıb. Yayı olmayan, əbədi qışı olmayan bir fəsli var. 12 ay qış var. Yalnız qış fəslinin yaşandığı yerlərdən biridir.

## Azərbaycanda qış fəsli

Azərbaycanda qış coğrafi mövqeyinə görə ümumiyyətlə mülayim



iqlimə malikdir. Dünyada müəyyən edilmiş 11 iqlim tipindən doqquzunu bizdə görmək mümkündür. Ölkənin şərq və mərkəzi hissələrində yay kifayət qədər isti və quraq, qışlar isə mülayim keçir.

Yayda həddindən artıq istilər səbəbindən Xəzər dənizi mühiti intensiv rütubətə məruz qalır. Bu vəziyyət yay fəslinin boğucu keçməsinə səbəb olsa da, isti qışlarda böyük amil yaradır.

Azərbaycanın ən soyuq bölgələri ölkənin demək olar ki, əlli faizini təşkil edən dağlıq ərazilərdir. Tundra iqliminə 3000 metrdən yüksək bölgələrdə rast gəlinir. Bunlar ölkənin ən çox yağıntı alan hissələridir. Azərbaycana turistik məqsədlə getməyi planlaşdıranlara ümumiyyətlə yaz və payız fəsillərinə üstünlük vermələri tövsiyə olunur. Dağ rayonları ilin 4-5 ayı qışda qarla örtülsə də, Azərbaycanda qış turizmi o qədər də inkişaf etməyib. Lakin son illər Azərbaycanda Şahdağ Yay-Qış Tətili Layihəsi Azərbaycan üçün bu sahədə böyük addım oldu. Azərbaycanın şimalında, Şahdağ yaxınlığında, Qusar şəhərində yaradılması planlaşdırılan kompleks çox əhatəli layihəni özündə əhtiva edir. Tikintisinə 2009-cu ildə başlanılmış istirahət kompleksinin tamamlanmış hissəsinin açılışı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən olmuşdur.

SİA məsələ ilə bağlı araşdırma apararaq, psixoloq, sosioloq və ekspertlərin fikirlərini öyrənib.

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Bəli, çi-



lə daxil oldu. Azərbaycanın hər bir bölgəsinə, başda paytaxt Bakı olmaqla azad etdiyimiz Qarabağa, cənuba, şimala, Naxçıvana, Gəncəyə qış mövsümü daxil oldu. Qış girən kimi də bizim təbiət üçün son 15-20 ildə spesifik olmayan bir soyuqluq hər bir insanı titrətdi.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

Artıq bu gün biz ilk qarı, quşbaşı qar yağdığını görürük. Təbiətin gözəlliyi və təbiətin məntiqi qışda soyuq və qar, şaxta olmalıdır, payızda yağış, yayda günəş, isti, yazda isə mülayim bir hava olmalıdır. Bu dünyanın və həyatın gedişatıdır, təbiət hadisəsidir və yerin, günəşin, ulduzların, kainatın fırlanmasından asılı olaraq müxtəlif illərdə, hətta onilliklərdə, əsrlərdə bir balaca fərqlə bu fəsillər, bu hava temperaturu bir-birini əvəzləyir.

Amma son 50 ildə dünyada karbon qazının artması, istiliyin get-gedə yüksəlməsi, buzlaqların əriməsi mövsümlərin özlərini belə dəyişib və biz yayla qışı ancaq yaşaya bilirik. Yəni, nə yaz, nə də payız demək olar ki, görmürük. Azərbaycan qışı müxtəlif bölgələrdə özünəməxsusluğu ilə seçilir. Məsələn, şimalda daha çox qar, şaxtalı havalar olur, nisbətən mülayim hava cənubda olur. Azərbaycan insanı da qışda bütün digər fəsillərdə olduğu kimi özünəməxsus sevinc içində təbiətin bu nemətindən, bu gözəlliyindən zövq almağa, onu yaşamağa çalışır. Qış fəsli sözsüz ki, dünyanın müxtəlif ölkələrində bəzilərində sərt, bəzilərində mülayim keçir. Mən özüm tutalım qış fəsli olaraq Türkiyədə, Gürcüstanda, Rusiyada, Belarusiyada, Ukraynada və Moldovada olmuşam və ordakı insanların qış fəslinin soyuqluğuna, ümumiyyətlə, yaşayış zonasına uyğun olaraq spesifik xüsusiyyətlərinə öyrəşdiyini, adaptasiya etdiyini görmüşəm. Yəni, qış gələn kimi istilik sistemi sazlanır və evlərdə temperatur yuxarı qalxır, insanlar qalın paltarlar geyinirlər. Burada təbii və süni xəzdən, dəri paltarlardan ibarət çöl paltarı olur. İnsanlar qışda həyət-bacanı qardan, buzdan, şaxtadan təmizləməyə çalışırlar. Amma Azərbaycanda bir qədər fərqlidir. Azərbaycanda qış elə də sərt olmur, küçələrimizdə qar həftələrlə qalmır, eyni zamanda yağan qar tez əriyir. Bu uşaqların qartopu oynamağına bəzən heç çatmır, həmin o zaman ərzində tezliklə əriyir, eyni zamanda Azərbaycanın mülayim qışında həmişəyaşıl ağacların çoxluğu qışın çox da havasızlığını bizə hiss etdirmir. Amma Azərbaycanın müxtəlif bölgələrində qeyd etdiyimiz kimi təbiət hadisələrinin sərtliyini biz nümayiş etdiririk, nəyə görəsə indiyə qədər yalnız şimal, Qusar zonasında qış turizmi bizdə inkişaf etdirilir, orda da indi son vaxtlar qar az olur, süni qar maşınları qar səpələyirlər. Bir də Naxçıvanda çox güclü qış keçir, sərt qış keçir. Biz Naxçıvanda sərt qış turizmini inkişaf etdirə bilərik, həm daxili turizmi, həm də xarici beynəlxalq turistlər üçün oranı səfalı bir məkana çevirə bilərik. Naxçıvanın buna bütün imkanları var, ətrafında olan tutalım, Türkiyə və İrandan olan turistlər elə bəs edir ki, Naxçıvanın öz iqtisadiyyatı yüksəlsin, yeni iş yerləri yaransın.

Bakıda qış elə də hiss olunmur. Çünki, son vaxtlar həm koronavirusa görə həm də insanlar daha çox internet sosial şəbəkələrə daxil olduqlarına görə evdən bayıra çıxmırlar. Biz əvvəlki dövr deyil ki, dayanacaqlarda avtobusları uzun müddət gözləyək, indi çox adamın özünün fərdi avtomobili var, ictimai nəqliyyat saz işləyir, biz evdən çıxırıq liftə, liftdən maşına ya ictimai nəqliyyata, ordan sonra da gəlirik yenə də lift və iş yerimizə.

Əvvəlki dövrlərdə əvvəllər insanlar daha çox çöldə, təmiz havada özlərinə vaxt ayırırdılar, hətta qış olanda belə onların yanaqları qızarırdı, qartopu oynayanlar kim, oğlanlar, qızlar bir-birinə sataşırdılar, qartopu atırdılar, qarda, şaxtada sürüşənlərə tez-tez rastlaşırdıq. Amma, indi bir balaca yağış olan kimi və yaxud külək əsməyə, qar yağmağa başlayanda bir çox dövlət qurumları əhaliyə xəbərdarlıq edir və əhali zatən koronavirusun yaratdığı fəsadlara görə onsuz da evlərdə həbs olunub.

Bir çox iqtisadi sahələrdə işsizlik var, iş yerləri bağlanıb və yaxud ixtisara salınıb, müəssisələrdə, xüsusi yerlərdə, restoranda, iaşə müəssisələrində insanların sıxlığına icazə verilmir və martın 1-ə qədər bu qadağalar uzadılıb. Ona görə də insanlar əvvəlki kimi çölə çıxmırlar, yalnız mənim kimi iş yerində ya evdə pəncərədən, isti otaqdan qara baxaraq qışdan zövq almağa çalışırlar. Amma, qışın da öz gözəlliyi var. Qışda həm soyuq hava, həm şaxtalı, qarlı havanın xəstəlik və mikrobları öldürməsindən tutmuş digər yəni, gözəlliklərinə görə insanlar ondan zövq almalıdırlar. Təəsüflər olsun ki, buna da biz rast gəlmirik.



**Psixoloq Mahuxanım Teymurova:** "Mövsüm dəyişmələri sadəcə bizə fiziki olaraq deyil, həmçinin psixoloji olaraq da təsir edir. Günəş işığının azalması insanda melotonin hormonunu artırır, "xoşbəxtlik hormonu" sayılan serotonin isə azalır. Melotonin hormonu ilə yuxunun tənzimləndiyi məlumdur. Bu hormon yalnız qaranlıqda ifraz olunur, işıqda isə azalır. Yayda gecələr qısa olduğu üçün melotonin ifrazı azaldığı halda, uzun payız və qış gecələrində daha çox ifraz olunur. Beləliklə bu fəsillərdə insan daha depressiv, kədərli, tək hiss edir. Lakin son araşdırmalara görə "Yeni il ruhu", yəni qarın yağması insanlara xoş,pozitiv təsirlər bağışlayır. Belə ki, bu zaman insanlar "Yeni il" əhval ruhiyyəsində olurlar. Daha şən, güvəndə, bir-birilərinə bağlı hiss edirlər. Əsas da qar yağanda istər böyüklər, istər kiçiklər olsun bu vəziyyətdən xoşbəxt olurlar. Bu zaman onların əhval-ruhiyyəsi yüksəlir".

# Soyuqlardan necə qorunmalıyıq?



**Həkim-infeksionist Namiq Nəbiyev:** "Qış fəslinin daxil olması ilə əlaqədar olaraq əsasən isti geyinmək, soyuqdan qorunmaq, nəfəs aldıqda ağzımızı şərflə bağlamaq lazımdır. Həmçinin, yuxu norması da önəmlidir.

Bildiyimiz kimi, koronavirusun bu günə qədər davam etməsi və bu bəla ilə əlaqədar olaraq ara məsafənin gözlənilməsi, daimi olaraq maskadan istifadə edilməsi mütləqdir. O cümlədən, nəinki qapalı şəraitdə hətta açıq havada da maskadan istifadə etsələr pis olmaz. Çünki maska digər virusların da qarşısını alır".

**Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova:** "Ölkə ərazisində yağıntılı hava şəraiti davam edir.



Soyuq hava kütlələrinin şərqdən daxil olduğuna görə intensiv və güclü yağıntılar əsasən Quba, Qusar bölgəsində qeydə alınıb.

Belə ki, düşən yağıntının miqdarı Qusarda 31mm olub ki, bu da aylıq normanın 86 faizidir. Bakıda və Abşeron yarımadasında sulu qar, qar yağması müşahidə olunur.

Düşən qar nəticəsində bəzi bölgələrdə qarın hündürlüyü 20sm-ə çatıb. Müşahidə olunan anomal soyuq hava şəraiti dekabrın 25-dək davam edəcək.

Havanın arabir yağıntılı olacağı, bəzi yerdə sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə isə yağıntıların intensivləşəcəyi ehtimal olunur. Şaxtalı hava şəraiti ilə əlaqədar əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimalı var".

***A.Vəli***

---

# Ermənistan

## MN-nin 21 yaşlı qeyri-hərbçi köməkçisi?

Müxalifətçi kəsimlər 21 yaşı bir qızcığazın hərbi strukturun önəmli vəzifəsinə yiyələnməsini bütövlükdə müdafiə sisteminin tənəzzülü kimi qiymətləndiriblər



Ermənistanın müdafiə naziri Suren Papikyanın 21 yaşlı Mane Markosyanı özünə köməkçi götürməsi ölkədəki siyasi-ictimai dairələrin səs-küy yaratmalarına səbəb olub. SİA xəbər verir ki, Sputnik-Armeniyanın verdiyi məlumata görə, zərif cinsin nümayəndəsi olması ilə yanaşı, həm də heç bir hərbi mükəlləfiyyəti olmayan qeyri-hərbçinin ölkənin müdafiəsi yönündə fəaliyyət göstərən mühüm güc strukturuna cəlb edilməsi narahatlıq mənzərəsini yaradıb.

### Müdafiə nazirinin müavini Arman Sarkisyan: "Əgər KİV-lərə inansaq, onda müdafiə nazirliyində ciddi "kadr talanı" aparılır"

ETİRAZ

Lakin maraqlıdır ki, nazir Suren Papikyanın müavini Arman Sarkisyan yaranan narazılıqların əbəs olduğunu deyib və onun sözləri vəziyyəti daha da gərginləşdirib. "Ermənistanın 21 yaşlı yeni köməkçisinin böyük həyat təcrübəsi ola bilər", deyən müdafiə nazirinin müavininin ifadələri "topa tutulub".

Xüsusilə müxalifətçi kəsimlər 21 yaşı bir qızcığazın hərbi strukturun önəmli vəzifəsinə yiyələnməsini bütövlükdə müdafiə sisteminin tənəzzülü kimi qiymətləndiriblər.

Arman Sarkisyan KİV-lərin başlatdığı hücumlara da özünəməxsus münasibət bildirib. "Əgər KİV-lərə inansaq onda müdafiə nazirliyində ciddi "kadr talanı" aparılır. Ancaq əslində heç bir problem yoxdur və sadəcə bir neçə dəyişiklik olub və onları "talan" kimi xarakterizə etmək olmaz", deyə müdafiə nazirinin müavini deyib və onu da bildirib ki, 21 yaşı Mane Markosyanın hərbi sferada bilgilərə malik olmaması heç bir əhəmiyyət daşımır.

### Mane Markosyan Suren Papikyan baş nazirin müavini olarkən də onun köməkçisi olub

"Nazir müavininin köməkçisinin hərbi sferasına aid bilgilərinin olmaması heç bir problem yarada bilməz", Sarkisyan deyib.

Daha bir maraqlı detal da nəzərdən yayınmayıb. Jurnalistlərin "21 yaşlı insanın hansı həyat təcrübəsindən danışmaq olar ki" sualına cavab olaraq "böyük həyat təcrübəsi" deyə bildirib və belə danışmağın doğru olmadığını da qeyd edib.

Qeyd edilir ki, Mane Markosyana aid deklarasiya registrində onun bioqrafiyasının iki məqamı qeyd olunub. Belə ki, Markosyan hazırkı müdafiə naziri Suren Papikyan baş nazirin müavini vəzifəsini daşıyarkən də onun köməkçisi kimi çalışıb. İndi isə müdafiə nazirinin köməkçisi olaraq fəaliyyət göstərir.

***Rövşən RƏSULOV***

**Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il fevral ayının 20-də ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq istəyən bakalavrlar üçün magistratura pilləsinə qəbul imtahanı keçiriləcək. Magistratura pilləsinə qəbul bu il də test üsulu ilə keçiriləcək. Lakin sosial şəbəkələrdə müzakirə olunan aktual mövzu 2024-cü ildə Magistratura pilləsinə qəbulda olunan dəyişikliklərdir. Burada xarici dilə qoyulan yeni tələblər ”reading, writing, speaking” nəzərdə tutulur. Mövzu ilə əlaqədar SİA olaraq ekspertlərin fikirlərini öyrənməyə çalışdıq.**

# Magistraturaya qəbul çətinləşir

## EKSPERTLƏR AYDINLIQ GƏTİRDİ



**Təhsil eksperti Kamran Əsədov qeyd edib ki, Azərbaycanda magistratura pilləsinə test üsulu ilə qəbul imtahanları 2006-cı ildən etibarən keçirilməyə başlayıb :** ”2006 ilə qədər Unversitetlərdə qəbul həyata keçirirdilər. Magistratura üzrə imtahanlar mütamadi olaraq forması dəyişir. 2019-cu ilə qədər iki mərhələli imtahan keçirilməyə başladı. Birinci mərhələdə məntiq, informatika, xarici dil üzrə keçirilir.



İkinci mərhələdə isə ixtisas fənni üzrə test imtahanı verirdilər. 2019-cu ildən sonra bu imtahanlarda yenidən dəyişiklik oldu. İndi yalnız 100 test üzrə məntiq, xarici dil, informatikadan bakalavrlar imtahan verirlər. 2024-cü ildə xarici dildən imtahanda digər qabiliyyətlər də ”reading, writing, speaking” bacarıqları da yoxlanılacaq. Bu, düşünürəm ki, tələb olunmalıdır. Çünki magistratura pilləsində olanlar elmi məqalə yazanda bu bacarıqlar zəruri olacaq. Ali təhsil müəssisələrində təhsil alanlar xarici dili yalnız əzbərləyirlər. Müəyyən sözlər əzbərləyirlər, qramatik qaydaları oxuyurlar. Bu zaman tələbələrdə ”reading, writing, speaking” kimi digər bacarıqları olmur. Amma, artıq müasir dövrün tələb etdiyi zəruri bacarıqlar halına gəlib. Eyni zamanda, elmi tədqiqatlar üçün bu bacarıqlara yiyələnmək vacibdir. Bəzən biz görürük ki, qəbul imtahanında yüksək bal toplayanlar ingilis dilində özlərini təqdim edə bilmirlər. Məhz bu bacarıqlar ona görə olmur ki, qəbul imtahanlarında yalnız əzbərlənmiş informasiyalar yoxlanılır. Yəni, test üsulu imtahan ilə xarici dil biliyinə tam nail olmaq olmur. Yalnız qayda və söz bazası yoxlanılır. Amma danışıq, dinləmə, yazma, anlama kimi kompintensiyalar yoxlanılmır. Hesab edirəm ki, bakalavr pilləsini bitirənlərdə və elmi işlə məşğul olanlarda bu bacarıqlar olmalıdır. Bu qərar dəstəklənməlidir. Bu, Azərbaycan elminə müsbət töhfəsini verəcək. Ona görə ki, magistratura pilləsinə verən şəxslər rahatlıqla yazma, danışma dinləmə bacarıqlarına da yiyələnəcəklər”.

**Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov bildirib ki, bakalavrlara magistr imtahanı yaxınlaşır:** ”Təklif olunan dəyişikliklər, eyni zamanda, yayılan məlumatlar qeyri-narahatlıq doğurur. Lakin məsələ bundan ibarətdir ki, bu prosesə birdən-birə keçirilmir.



Tədricən dəyişikliklər baş verir. Doktoranturaya qəbulda da bu cür dəyişiklik oldu. İLTS səviyyəsində sertifikatlar tələb olundu. Birdən-birə baş verdiyi üçün xeyli sayda doktoranturaya hazırlaşanlar seçimlərində dəyişiklik etməli oldu. Çünki bu tələblərə bütün iddiaçılar cavab vermirdi. Amma magistrlər üçün İLTS üçün xarici dildən bilik tələb olunması, sadəcə olaraq, fikirlərdir. Düşünürəm ki, bu formaya keçid təmin olunacaq. Çünki bizim alimlərin xarici dil bilgisi ilə bağlı ciddi problemləri var. Yeni nəsil elm adamlarının formalaşması üçün mütləq şəkildə xarici dili bilməsi vacibdir. Həm elmi ədəbiyyatların ingilis dilində olması ümumilikdə beynəlxalq təcrübə, beynəlxalq magistratura proqramından tələblər mütləq şəkildə İETS sertifkatının olmasını zəruri edir. Çox güman ki, bizim magistrlər üçün bunlar tələb olunacaq. Amma magistratura sənəd verən bakalavrların həm yazma, həm də danışma qabiliyyətinin yoxlanılması dövlət imtahan mərkəzinin son dəyişikliyi, düşünürəm ki, güzgün dəyişiklikdir. Qeyd edim ki, magistratura səviyyəsi, əslində, təhsilin daha yüksək səviyyəsidir. Çünki tədqiqatlara daha yaxşı çıxış etmək olar. Magistrlara bu tələbin qoyulması nitq, danışıq, yazma bacarıqlarının olması çox vacib məqamdır. Artıq zaman yetişib ki, biz bu cür tələbləri təmin edə bilək. Dövlət İmtahan Mərkəzinin bu qərarını düzgün hesab edirəm və dəstəkləyirəm”.

**Təhsil eksperti Elçin Əfəndi**



**mövzu ilə əlaqədar danışıb ki, bəli, belə bir qərar verilib:** ”Qərarın 2024-cü ildən tətbiqi nəzərdə tutulur. Əlbəttə, bu qaydanın tətbiqi ümumi araşdırma nəticəsində irəli sürülüb. 2019-cu ildən etibarən ölkədə yeni üsulla qəbul imtahanları keçirilir. Bu zaman abituriyentlərin xarici dil bilikləri həm oxuyub anlama, həm də dinləyib anlama üzrə qiymətləndirilir. Həmin dövrün abituriyentləri bakalavr pilləsi üzrə qəbul olarkən, artıq bu format barədə məlumatlıdırlar deyə, onların bakalavr pilləsindən magistr pilləsinə keçid üçün verəcəkləri qəbul imtahanında xarici dil üzrə hər hansı bir narahatlıq keçirəcəklərini düşünmürəm. Nəzərinizə çatdırım ki, artıq bir çox ali təhsil müəssisəsində ixtisaslarda tədris ingilis dilində aparılır. Bu, bir növ dövrün tələbi olmaqla yanaşı, həm də zərurətdən irəli gəlir. Bu anlamda bakalavr pilləsində təhsil alan və magistratura pilləsinə qəbul olmaq istəyən tələbələrin xarici dil biliklərinin yüksək olması vacibdir. Qaldı ki İLTS və yaxud da TOEFL və digər xarici dil üzrə beynəlxalq qiymətləndirmə meyarlarına bənzətməyə, fikrimcə, magistraturaya qəbul imtahanını onlarla müqayisələndirmək düzgün deyil. Hər il magistratura pilləsinə qəbul üzrə 10-20 min arası sənəd verən var. Ən yüksək göstərici 19764 nəfər ötən il qeydə alınmışdı. Ayrılan plan yerindən təxminən 7-8 min nəfər çox bakalavr imtahana qatılıb. Bu qədər marağı nəzərə alıb birdən-birə çətinlik səviyyəsi artırılan imtahan və qiymətləndirmənin aparılması doğru olmaz”.

***Qönçə Quliyeva***



# Əli Kərimlinin qrant acgözlüyü

**Özü heç nəyə yaramasa da, başqalarına irad tutmaqla çirkin niyyətlərini ört- basdır etməyə çalışanları atalarımız belə xarakterizə ediblər: ”Bəyə, xana yaradı, keçəl qıza yaramadı.” Bu ”etiket” AXCP sədri Əli Kərimlinin, onun kimi xarici qüvvələr tərəfindən idarə olunanların, başqalarının süfrələrinin artığına göz dikərək Azərbaycana qarşı təxribat törədən, ”siyasi mühacir” adı altında gizlənənlərin boyuna biçilib.**

Bütün dünya azərbaycanlılarının bir arzusu, niyyəti var idi ki, 30 il Ermənistanın əsarətində qalan torpaqlarımız azad olunsun. Köçkünlər doğma evlərinə qayıtsınlar. Çox təəssüf ki, özümüzdən olsalar da, erməni dərrakəlilərin öndə gedəni olan Əli Kərimli kimi ”islahatçı sədr”in ətrafındakılar xalqımızın bu sevincinə də biganə qaldılar. Əksinə, 30 ildə bir dəfə də olsun hansısa beynəlxalq təşkilatda Azərbaycana qarşı təcavüzünü pisləməyən xəyanətkarlar ermənilər kimi məyus oldular. Xocalı soyqırımı da daxil olmaqla Başlıbel, Qaradağlı kimi digər faciələrimizdən söz açmadılar. Ölkədə siyasi plüralizmin, demokratiyanın təmin olunması üçün dəfələrlə siyasi partiyalarla təşkil olunan dialoqlardan, məsləhətləşmələrdən imtina edən radikallar-AXCP-nin və Müsavat Partiyasının sədrləri Əli Kərimli və Arif Hacılı bu cür humanist tədbirlərdə iştirak etməməklə xəyanətkarlıqlarını etiraf etməli oldular. Məqsəd də, səbəb də aydındır. ”Yurd şefi” Əli Kərimli kimi Müsavat başqanı Arif Hacılı da xarici havadarlarından aldıqları qrantları milli təəssübdən üstün tutub başqa siyasi partiyalardan fərqli olaraq belə tədbirlərə qatılmırlar. Əvəzində Sevinc Osmanqızı, Qənimət Zahid kimi Vətənə xəyanət edənlərin yaratdıqları internet televiziyalarda Azərbaycana qarşı təxribatlarını davam etdirirlər.





Dünyanın çağdaş hərb tarixində Azərbaycanın İkinci Qarabağ müharibəsindəki döyüş əməliyyatları təcrübə kimi hələ də öyrənilir. Azərbaycan Milli Ordusunun rəşadət və döyüş qabiliyyətini nümunə göstərən hərbi ekspertlərdən fərqli olaraq əlikərimlilər Silahlı Qüvvələrimizə böhtan yağdırmaqdan, torpaqlarımız uğrunda qurban getmiş şəhidlərimizə hörmətsizlik etməkdən çəkinmirlər. Təkcə İkinci Qarabağ müharibəsində deyil, 30 ildə erməni təcavüzünün qurbanı olan şəhidlərimizin, günahsız insanların qətliamını, ağrı-acısını görməzdən gələn bu nadürüstlərdə xarici ölkələrdən Azərbaycana gələn qonaqlarda olan qeyrət belə yoxdur. Vətən müharibəsinin davam etdiyi günlərdə ermənilərin atdıqları raketlər nəticəsində Gəncədə, Bərdədə, Tərtərdə və digər bölgələrdə həlak olanların facisəinə üzülən xaricilərdən fərqli olaraq dinc əhalinin ermənilər tərəfindən qətlə yetirilməsinə biganə qalan bu soysuzlara veriləcək ad leksikonumuzda belə yoxdur. İşğaldan azad olunan ərazilərdə aparılan abadlıq, quruculuq, bərpa işlərini heyrətlə izləyən, Prezident, Ali Baş Komandan İlham Əliyevin liderlik təcrübəsinə heyran qalan diplomatlardan, xarici jurnalistlərdən fərqli olaraq Əli Kərimlini, onun qulbeçəsi, ”Milli Şura”nın sədri Cəmil Həsənlini və yaxud xarici ölkələrdə havadarlarının qoltuğuna sığınan xəyanətkarları Şuşa Zəfəri, Suqovuşanın sevinci, Füzuli Beynəlxalq Hava Limanı, bütünlükdə türk dünyasının həmrəyliyini təmin edəcək Zəngəzur dəhlizinin açılması maraqlandırmır. Türkiyədə davamlı olaraq təşkil olunan terrorların təşkilatçısı ”FETÖ”nun silahdaşı olan Əli Kərimli Türkiyə -Azərbaycan birliyindən də narahatdır. Təxribatlarını ermənilərin və radikal qüvvələrin maraqları baxımından təşkil edən Əli Kərimlinin ”türkpərəstliyi” də qondarmadır.

Həmişə erməni dayılarının mənafeyini müdafiə edən Əli Kərimlinin Azərbaycanın uğurlarına sevinməməsi öz soykökünü danmaqdır. Belə ki, zatını danan, azərbaycanlıları qətlə yetirən erməniləri müdafiə edən haramzadalardan olan Əli Kərimli, Arif Hacılı, Sevinc Osmanqızı, Qənimət Zahid, Vidadi İsgəndərli kimi bütün vətən xainləri bilməlidirlər ki, köpəyin hürüdüyü karvan artıq keçib. Əsası olmayan yalanlara, böhtanlara inanmayan Azərbaycan xalqı bu günlər Böyük Qayıdışın sevincini yaşayır. ”Həyatda elə cümlə ol ki, sənə nöqtə qoymasınlar” hikmətini unudan Əli Kərimli üçün deyilib ki, şərəfli ölüm şərəfsiz həyatdan daha yaxşıdır. Hədəfsiz gəmiyə heç bir külək kömək etmədiyi kimi, Əli Kərimli hələ də yelkənsiz qayıq kimi daha çox qrant ayıran sifarişçinin limanına yan alır. Şeytanla belə işbirliyinə hazır olan Əli Kərimli unudur ki, xaricilərin qrantlarına uyğun apardığı təxribatlar, xəyanətlər zaman gələcək özünə qənim olacaq.

***Xuraman İsmayılqızı***

# “Biz primitiv addımların atılmasına məcbur olacağıq”

**“Erməni təxribatları çox təəssüflər olsun ki, hələ də davam edir. Bu təxribatların əsas səbəbi odur ki, Ermənistanda olan siyasi qüvvələr Azərbaycanla olan münasibətlərin tənzimlənməsini istəmirlər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə qeyd edib.**



Onun sözlərinə görə, siyasi qüvvələr müəyyən konstruktiv məcrada gedən prosesləri əngəlləmək istəyirlər, xüsusilə də delimitasiya və demarkasiya ilə bağlı olan prosesləri əngəlləmək istəyirlər: ”Ermənistan tərəfində siyasi qüvvələr xətlərin, kommunikasiyaların açılmasını istəmirlər. Bu məsələlər təəssüflər olsun ki, belə gərginliklərin yaranmasına səbəb olur. Digər tərəfdən isə bəzi hallarda biz Ermənistan siyasi rəhbərliyinin iradəsizliyinin şahidi oluruq. Onların sözləri ilə əməlləri bir-birini tamamlamır. Sözdə bir şey deyirlər, əməldə isə başqa cür hərəkət edirlər. Bu da həmin dövlətin zəifliyindən xəbər verir. Həmçinin bu hərəkətlərlə digər siyasi qüvvələrin əlində Ermənistan rəhbərliyi bir növ alətə çevirilib. Rəhbərliyi istədikləri kimi idarə edirlər. Təəssüflər olsun ki, bu təxribatların nə zaman bitəcəyi məlum deyil.

Qeyd etmək istərdim ki, bu təxribatlar ona görə hələ də davam edir ki, bu məsələlərə kifayət qədər sərt reaksiya verilmir, xüsusilə də sülhməramlılar tərəfindən. Bu məsələlər dəfələrlə ictimaiyyət tərəfindən müzakirə olunub. Düşünürəm ki, Azərbaycan rəhbərliyi tərəfindən bununla bağlı müəyyən mesajlar Rusiya rəhbərliyinə çatdırılıb. Bu təxribatlar əgər davamlı xarakter alsa, biz primitiv addımların atılmasına məcbur olacağıq. Həmin regionlarda bizim xüsusi təyinatlılar da öz vəzifələrini həyata keçirirlər. Əgər bu təxribatların qarşısı sülhməramlılar tərəfindən alınmazsa bizim xüsusi təyinatlılar hesabına bu təxribatların qarşısı alınmalı olacaq”.

***Abutel İlhamqızı***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Qazaxıstan olayları: qazax xalqı tarixi müdrikliyinə arxalanmalıdır

**Artıq bir neçə gündür ki, Qazaxıstanda baş verən məlum və təəssüfedici olaylar region ölkələrinin də diqqətini bu respublikaya tərəf yönəldib. Lakin bəri başdan deyək ki, qazın artırılmış qiyməti ilə bağlı başlayan etirazlardan sonra digər tələblər də irəli sürüldü və onların hər biri demək olar ki, hökumət tərəfindən yerinə yetirildi. Üstəlik, hökumət istefaya getdi və proseslərin sonrakı gedişatı ilə bağlı, yeni vəziyyətin normallaşdırılması istiqamətində atılacaq bəzi addımlar da etirazçılara açıqlandı. Lakin...**

Lakin bütün bunlara rəğmən, etirazçılar tətbiq edilən fövqəladə vəziyyətə və komendant saatına baxmayaraq ölkənin müxtəlif şəhərlərində qanunsuz əməllər törətməyə davam etdilər. Polis maşınları yandırıldı, dükan və işə obyektlərinə basqınlar düzənləndi - bir sözlə etirazçı kütlə arasında yer alan şəxslər tərəfindən talançılıq və yağmalama halları yaşandı. Belə olan halda isə polis güclərinin qanunun imkan verdiyi mümkün vasitələrdən istifadə edərək hadisələrin daha böyük fəsadlara yol verməməsi üçün addım atmasından başqa çarəsi də qalmır.

## Sabah isə dağıdılan, yandırılan hər şey yenidən bərpa olunmalıdır...

Digər tərəfdən isə daha bir nüansı qeyd etmək olar. Bu gün Alma-Atada, Çimkənddə, Aktauda, Nur-Sultanda, Aktobedə və s. şəhərlərdə yandırılan polis və yanğınsöndürən maşınları, digər texnikalar, habelə şəhərin küçələrindəki inşa edilmiş müxtəlif məqsədli tikililər və s. yerlərin dağıdılması - bütün bunlar bilavastiə vergi ödəyiciləri olan qazax xalqının, Qazaxıstan vətəndaşının bəhrələridir. Və əgər bütün bunları yandıranlar, məhv edənlər varsa, onlar, ilk növbədə, sadə xalqın ödədiyi vergiləri hədəfə alırlar. Sabah isə dağıdılan, yandırılan hər şey yenidən bərpa olunmalıdır və söz yox ki, onlar da vergi ödəyicilərinin dövlət büdcəsinə yatırdıqları vəsaitlər hesabına ödəniləcək! Məsələn, əgər dövlət polis maşınlarının bərpası, yenidən alınması, digər məhv edilmiş texnikaların əldə edilməsi üçün pullar xərcləyəcəksə, talançılıqlar, yağmalamalar olmasa idi həmin pullar yeni uşaq bağçalarının inşasına, sosial obyektlərin tikintisinə, yaxud təqaüdlərin və pensiyaların artırılmasına, həmçinin digər sosial yönümlü məqsədlərə xərclənə bilərdi. İndi isə bu mümkün olmayacaq, çünki vergi ödəyicisi olan bir qazax vətəndaşının haqqını küçələrdə qanunsuzluqlar törədən digər qazax vətəndaşı tapdalayıb...

## Qərb, Şimal və s. güclər öz siyasi maraqlarını təmin etməkdən ötrü ən çirkin oyunlarını işə salmağa hazırdırlar

Beləliklə, təxribatlar davam edirsə, həmin olaylar regionun çiçəklənən ölkələrindən biri olan Qazaxıstanın inkişafının, tərəqqisinin qarşısını alacaq, buna isə əlbəttə ki, imkan verməli olmaz. Qazax xalqı əsrlərdən bəri türk dünyasının müdrik xalqı, dastanlar yazan, milli ənənəsini qoruyub-saxlayan xalq kimi formalaşıb və bizlər də Xəzər qonşumuz olan bu ölkədəki hadisələrin tezliklə başa çatacağına ümid edirik, inanırıq.

Bu gün həssas regionumuzda bir çox xarici qüvvələrin kirli maraqlarının dayanması da kimsəyə sirr deyil. Qərb, Şimal və s. güclər öz siyasi maraqlarını təmin etməkdən ötrü ən çirkin oyunlarını işə salmağa hazırdırlar. Belə oyunların qarşısını almaq üçün isə yalnız və yalnız müdrikliklikdən istifadə olunmalıdır, həmin müdriklikdən ki, vaxtilə qazax xalqının böyük oğlu, bu gün Qazaxıstanın elbaşısı (ağsaqqalı) olan Nursultan Nazarbayev ölkəsini parçalanmadan, separatçı meyillərdən, radikal dini cərəyanlardan qorudu, sonra isə inkişaf etdirdi. Qazaxıstan xalqının el ağsaqqalları, nüfuzlu şəxsiyyətləri də kifayət qədərdir.

Ümidvarıq ki, bu dəfə də belə olacaq və qazax xalqı dağıdıcılığın, qiyamın, xarici kəşfiyyatların, kirli məqsədlərin qurbanı deyil, məhz və məhz Qazaxıstanın tərəqqisinin, inkişafının, çiçəklənməsinin tərəfində dayanacaq.

# İqor Korotçenko: Azərbaycanda “rəngli inqilab” ssenarisi baş tutmaz, çünki...

## İqor Korotçenko: "KTMT heç vaxt Ermənistanın ərazi iddialarını dəstəkləmək üçün istifadə edilməyəcək. Qarabağ Azərbaycandır, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

Rusiya prezidenti Vladimir Putin dünən KTMT ölkələri liderlərinin Qazaxıstandakı vəziyyətlə bağlı videokonfrans formatında görüşündə çıxış edərək, bu ölkədə baş verən hadisələr zamanı ”Maydan” texnologiyalarından istifadə edildiyini bildirib. ”Əlbəttə, biz başa düşürük ki, Qazaxıstanda baş verənlər dövlətlərimizin daxili işlərinə kənardan müdaxilənin ilk və sonuncu cəhdi deyil. KTMT-nin gördüyü tədbirlər isə açıq şəkildə göstərdi ki, biz vəziyyətin daxildə sarsılmasına gətirib çıxarmasına və qondarma rəngli inqilablar ssenarilərinin reallaşmasına imkan verməyəcəyik”,- Rusiya lideri bildirib.

”Biz başa düşürük ki, Qazaxıstanın dövlətçiliyi üçün yaranan təhlükə yanacağın qiymətləri ilə bağlı kortəbii etiraz aksiyaları ilə deyil, dağıdıcı daxili və xarici qüvvələrin vəziyyətdən sui-istifadə etməsi ilə bağlıdır. Qaz bazarındakı vəziyyəti müdafiə edənlər bəzi insanlardır və eyni məqsədləri güdürlər, əlinə silah alıb dövlətə hücum edənlər isə tamam başqa adamlardır və fərqli məqsədlər güdürlər”,- Rusiya prezidenti bildirib.

Vladimir Putin hansı xarici qüvvələrdən danışır və niyə Azərbaycanda Qazaxıstan ssenarisi mümkün deyil? Rusiyanın tanınmış politoloqu, ”Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko bu məsələləri ”Moskva-Baku” platformasına müsahibəsində şərh edib. Politoloqun şərhini oxucularımızın diqqətinə çatdırırıq.

***- Vladimir Putinin bəyanatlarını necə şərh edə bilərsiniz və ümumiyyətlə, Qazaxıstanda belə bir ssenarinin həyata keçirilməsinə nə təkan verdi?***

- Qazaxıstan 2001-ci il sentyabrın 11-də ABŞ-ın üzləşdiyi şeylə üzüzə qaldı- bu, genişmiqyaslı terror aktıdır. Sonra ABŞ üzvü olduğu NATO-nun dəstək mexanizmini işə saldı, Qazaxıstan isə üzv olduğu KTMT-yə üz tutdu.

Qazaxıstanda tədbirlərin həyata keçirilməsi texnologiyalarına gəlincə, onlar kifayət qədər standartdır. Əvvəlcə hər şey etirazçıların iqtisadi tələblərindən başlayıb, bundan sonra vəzifəsi hakimiyyəti devirmək və ölkədə sabitliyi pozmaq olan qanunsuz silahlı birləşmələr gündəmə gəlib.

Təbii ki, Qazaxıstanda baş verənlərin analoqu yoxdur. Biz postsovet məkanının heç bir yerində belə formata rast gəlməmişik ki, eyni vaxtda onlarla şəhərdə təlim keçmiş silahlı dəstələr dövlət orqanlarına və hüquq-mühafizə orqanlarına silahla hücum ediblər. Qazaxıstan hakimiyyətinin situasiyaya reaksiyasının gecikməsi dağıdıcı elementlərin miqyasını və fəallığını müəyyən dərəcədə gücləndirib. İcazə verin, diqqətinizə çatdırım ki, bunlar dəqiq təlim keçmiş yaraqlılar idi. Adi etirazçılar hücum etməz, ələ keçirməz, dağıtmaz.




Vladimir Putin digər məsələlərlə yanaşı, Qazaxıstanın işlərinə kənardan müdaxilə etmək cəhdindən danışır. Kimin ”sifarişçi” olması məsələsi indi təhlil mövzusudur. Anlamaq lazımdır ki, bu adamlar harada təlim keçiblər, Qazaxıstanın təhlükəsizlik orqanları bu vəziyyətdə niyə yatıblar. Bütövlükdə deyə bilərik ki, biz qazax spesifikasına malik rəngli inqilabla qarşı-qarşıyayıq.

İndi Qazaxıstan Milli Təhlükəsizlik Komitəsində kadr dəyişikliyinin necə aparıldığını görürük. Bu xüsusi xidmətin demək olar ki, bütün yüksək rəhbərliyi vəzifədən uzaqlaşdırıldı, bəziləri, o cümlədən MTK (Milli Təhlükəsizlik Komitəsi) rəhbəri həbs edildi. Diqqətli, hərtərəfli təhlil Qazaxıstan və Rusiya xüsusi xidmət orqanları, xüsusən də Xarici Kəşfiyyat Xidməti və Federal Təhlükəsizlik Xidməti tərəfindən aparılacaq.

Yeri gəlmişkən, Qazaxıstanda baş verən hadisələrin mənşəyini erməni lobbiçilərinin ”izah etmək” cəhdlərini dayandırmaq vacibdir. Rusiyada erməni agentlərinin dodaqlarından ”türk izi”, Ərdoğanın ”Turan” yaratmaq istəyi kimi boşboğaz hayqırtıları neçə dəfə eşitmişik. Mən bu lobbiçilərə ancaq onu deyə bilərəm: ”Siz olmasanız da kimin maliyyələşdirdiyini, kimin istiqamətləndirdiyini anlayacaqlar”. Ermənilərin hər zamankı kimi türk kartını oynamaq istəyi başa düşüləndir. Amma necə deyərlər, onlar rədd olsunlar. Düzünü desəm, artıq onların bu açıq lobbiçilik cəhdlərindən hamı bezib. Putin bunu bütün çılpaqlığı ilə biləcək. Bunun üçün erməni lobbiçiləri yox, Xarici Kəşfiyyat Xidməti və Federal Təhlükəsizlik Xidməti var.

***- ABŞ-ın dövlət katibi Blinken Qazaxıstanda baş verənlərlə bağlı bu ölkənin KTMT qüvvələrindən kömək istəməsini bəyənməyib və Qazaxıstanın ABŞ-dan kömək etmək barədə xahiş edəcəyi barədə iddialar irəli sürüb. Bundan əlavə, Blinken Rusiyanın Sovet İttifaqını bərpa etmək istədiyinə əminliyini ifadə etdi ...***

- Entoni Blinkenin iddiaları hava vibrasiyasından başqa bir şey deyil. Aydındır ki, ABŞ Qazaxıstandakı vəziyyətə KTMT-dən belə operativ və effektiv reaksiya gözləmirdi. Düşünürəm ki, Qərb kontingentin dərhal yerləşdirilməsinə heyrətlə baxdı. Bütün qərarlar demək olar ki, dərhal, rəvan, hüquqi prosedurlarla təmin olundu. Və yeni bir reallıq yarandı, bundan sonra Birləşmiş Ştatlar, bağışlayın, hər şeyi öz adı ilə çağırsaq, ”ağ eləyib” bunun necə edildiyini deməyə başladı. İndi onlar narazıdırlar, nəsə tələb edirlər. Növbəti nə var?!

KTMT qüvvələri Qazaxıstanın tələbi ilə göndərilib. Qərar Lukaşenkonun dəstəyi ilə Putin tərəfindən qəbul edilib. Paşinyan sadəcə olaraq ”danışan baş” rolunu oynadı.

ABŞ dövlət katibi qəzəblənib, yaxşı, bu onun problemləridir. Ona heç bir izahat verməyəcəkləri kimi, buna heç kim reaksiya verməyəcək.

Rusiya öz sərhədlərinin perimetrləri boyunca sabitlik istəyir, qonşu Qazaxıstanda sabitlik istəyir. Axı bizim Qazaxıstanla nəhəng sərhədimiz var, bizim hərbi poliqonumuz var, ondan respublika ilə razılaşma əsasında istifadə edirik, Baykonur kosmodromu. Bunlar bizim üçün vacib obyektlərdir. Bundan başqa, bizim milyonlarla qaçqına ehtiyacımız yoxdur. Və Qazaxıstanda vəziyyət sabitləşən kimi KTMT qoşunları onun ərazisini tərk edəcək.

Hər bir ölkə öz milli maraqlarını həyata keçirir və qoruyur. Görünən odur ki, sabit Qazaxıstan və orada Rusiya hava-desant qoşunlarına əsaslanan KTMT sülhməramlı kontingentinin olması ABŞ-ın milli maraqlarına cavab vermir. Təbii ki, bu, onların xoşuna gəlmir. Biz də çox şeyi sevmirik. Praktiki siyasətdə ABŞ-ın narazılığı heç nəyə təsir etmir. Bütün bunlar Vaşinqton tərəfindən ancaq ritual təlqinlər kimi səslənir. Blinken ancaq öz arvadından nəsə tələb edə bilər, Rusiya və Qazaxıstandan isə heç nə tələb edə bilməz. Oyun oynanılır, bu qədər. İndi Birləşmiş Ştatlar üçün susmaq və bir şey söyləməmək daha ağıllı olardı - nəinki özünü axmaq yerinə qoymaq.

O ki qaldı ABŞ-ın Qazaxıstanda dövlət çevrilişinə cəhdin təşkilatçısı ola biləcəyinə. Mən ”məkrli Qərb”, terrorçular və ya bu kimi şeylər haqqında danışıb etiketləri asmaq istəmirəm. Bunu öyrənmək üçün xüsusi xidmətlər var. Ermənilər bir ağızdan Türkiyəyə işarə edərək ”Ərdoğan-Ərdoğan” qışqırması ilə deyil. Bu, ciddi deyil. Və belə ciddi işlərdə faktura və ya intellekt lazımdır.

***- İndi bəzi ekspertlər bu mövzunu fəal şəkildə təbliğ edirlər- niyə KTMT qüvvələri Qazaxıstana gətirilib, amma ikinci Qarabağ müharibəsi zamanı gəlmədilər...***

- KTMT heç vaxt Ermənistanın ərazi iddialarını dəstəkləmək üçün istifadə edilməyəcək. Qarabağ Azərbaycandır, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, beynəlxalq ictimaiyyət də belə tanıyır. KTMT-nin baş katibi Stanislav Zas dəfələrlə bildirib ki, istər 44 günlük müharibə zamanı, istərsə də Azərbaycan-Ermənistan sərhədinin ”boz” zonasında baş verən hadisələr zamanı təşkilatın müdaxiləsi üçün heç bir əsas olmayıb. Yeri gəlmişkən, Nikol Paşinyan özünü Tokayevin vəziyyətinə salsa, onu heç kim xilas etməyəcək... Çünki prinsipial fərq var. O, KTMT ölkələrinin rəhbərlərinə yad adamdır. İndi Paşinyan öz rolunu oynayır, açıq-aydın hansısa divident almağa ümid edir. Ermənistan həmişə kiməsə- indi ABŞ-a, sonra Fransaya, sonra İrana, sonra KTMT-yə ümid bəsləyir. Onun beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Ermənistan var, onun delimitasiyası və demarkasiyası hələ aparılmalıdır, qoy öz sərhədləri daxilində otursunlar və bacarırlarsa, inkişaf etdirsinlər. Ya da Fransaya getsinlər, istəsələr, orada öz fransız ”Artsax”larını yaratsınlar. Fransa xüsusi xidmət orqanları və Fransa prezidenti icazə versə. Və bu cəhdlərin necə bitəcəyini müşahidə edək.

***-Qazaxıstandakı vəziyyətlə və son illərdə postsovet məkanının müxtəlif dövlətlərinin timsalında çoxlu oxşar vəziyyətlərin şahidi olmağımızla əlaqədar olaraq demək olar ki, Azərbaycana tez-tez kənardan təsirlər olub. Kiminsə xoşuna gəlmir, belə deyək, həddindən artıq müstəqillik və ya kənardan diktə olunan müstəqillik...***

- Qazaxıstanda indi gördüyümüz vəziyyət ölkədəki faktiki ikihakimiyyətlilik və klanların mübarizəsi nəticəsində formalaşıb. Amma Azərbaycanın başında güclü, effektiv siyasət yürüdən prezident dayanır. Azərbaycanda Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti səmərəli fəaliyyət göstərir, daxildə və xaricdə təhlükə və risklər barədə məlumat verir. Ona görə də Qazaxıstanda gördüyümüz hadisələrin Azərbaycanda baş verməsi mümkün deyil.

Azərbaycan sabitliyi pozmaq və çirkli suda balıq tutmaq arzusunda olan bir çoxları üçün həqiqətən ”dadlı yeməkdir”. Buna heç bir şübhə yoxdur. Axı o, mühüm strateji mövqeyə malikdir və enerji resurslarının böyük ixracatçısıdır. Amma İlham Əliyev kimi siyasətçi dövlətin başında olanda heç bir ”rəngli inqilab” cəhdi uğurlu ola bilməz. Hətta güclü kənar dəstək olsa belə, bu mümkün deyil. Bundan əlavə, bu gün onun mövqeyi Azərbaycan cəmiyyətində İkinci Qarabağ müharibəsinin nəticələrinə görə də möhkəmlənib və Prezident Əliyev dövlətin ərazi bütövlüyünü bərpa edən və bununla da tarixə düşən Milli Qəhrəmandır. İndi qarşıda duran vəzifələr işğaldan azad edilmiş torpaqların bərpası,- bu iş sürətlə həyata keçirilir,- qaçqınların öz doğma yurdlarına qayıtmasıdır. Bütün bunlarda xalq dövlət başçısını dəstəkləyir. Rəhbərin səlahiyyəti dövlətin sabitliyinə işləyir.

Həmçinin, Azərbaycanda korrupsiyaya qarşı səmərəli mübarizə başlayıb. Sosial siyasətin inkişafına, sosial proqramların həyata keçirilməsinə böyük diqqət yetirilir. Daxili siyasi sabitlik, effektiv siyasi sistem və güclü prezident Azərbaycanı Qazaxstandakı olan faciələrdən sığortalayır.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
12 yanvar
2022-ci il

# Ronaldo Messinin komandasına keçir?



"Mançester Yunayted"in portuqaliyalı ulduz hücumçusu Kriştiano Ronaldo PSJ-yə keçə bilər. Belə bir iddia ilə "Le 10 Sport" idman nə- xış edib. Nəşrin yaydığı məlumatda bildirilir ki, Hücumçu Kilian Mbappe Pari- nu tərk etməyə yaxındır, ona görə də rəhbərlik heyəti gücləndirmək üçün vari- ax- tarır. Qeyd olunub ki, Ronaldo İngiltərə təmsilçisindən ayrılmaq istəyini ifadə edərsə, PSJ hərəkətə keçməyə hazır olacaq.

Daha əvvəl portuqaliyalı forvardın komandadakı vəziyyətdən və "Mançester Yunayted" rəhbərliyindən narazılığı barədə xəbərlər yayılıb. Ronaldo agenti Jorje Mendesə vəziyyətin dəyişmədiyi təqdirdə yeni komanda axtarmalı olduğunu deyib.

# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# "Bavariya" bu futbolçuya 18 milyon avro maaş verəcək!

"Bavariya" futbolçusu Kingsli Komanla yeni müqavilə imzalamaq üçün razılığa gəlib. Qol.az xəbər verir ki, bu barədə "L`Equipe" məlumat yayıb. Tərəflərin 3 illik sözləşmə üçün anlaşdığı bildirilib. Yeni müqaviləyə əsasən, 25 yaşlı yarımmüdafiəçi Münhen təmsilçisində illik 17 milyon avrodan çox maaş alacaq. Komanın hazırkı sözləşməsinin müddəti isə 2023-cü ilin yayına qədərdir.

Qeyd edək ki, Kingsli Koman bu mövsüm 17 matçda 5 qol vurub və 2 qolun ötürməsini verib.





# Məşhur model dünyaya sərvət bağışladı

Britaniyalı model və aktrisa Kara Delevin Los-Ancelesdə qatıldığı tədbirdə dünyanı xilas etmək üçün 475 min dollar pul bağışlayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, tədbir ekosistemə dəyən zərərin bərpasında hökumətə yardım edən agentlik tərəfindən təşkil edilib. Delevin qurduğu şirkət sayəsində keçən il ən çox qazanan Britaniya modeli olub.

***Ayşən Vəli***

# Qaraciyəri bir anda təmizləyən ən ucuz və faydalı RESEPT



**İtburnu çayı çox faydalı müalicəvi içkidir. Bu çay immun sistemini stimullaşdırır və möhkəmləndirir, bakteriya əleyhinə təsir edir, iltihabları azaldır.**

Soyuq qış aylarında, soyuqdəymə epidemiyaları zamanı bu çay bizə çox yaxşı müalicəvi və profilaktik kömək edə bilər. İtburnu bir çox vacib vitamin və minerallarla zəngindir. Belə ki, itburnu tərkibində C vitaminin miqdarına görə əsl çempiondur. Fitoterapevt həkimləri itburnunu "təbii vitamin-mineral kompleksi" adlandırırlar.

Çox vaxt qaraciyərin ağrıları olmur, lakin, sağ tərəfinizdə ağrılar hiss edirsinizsə - bununla əlaqədar mütləq ehtiyat tədbiri görmək lazımdır. Bu orqanın bir gözəl xüsusiyyəti də vardır. Belə ki, qaraciyərin hüceyrələri diqqətli qayğı görəndə və düzgün pəhrizlərin nəticəsində bərpa olunmağa başlayır.

Qaraciyərin fəaliyyətini yüngülləşdirməyə kömək edən üsullardan biri isə itburnu hesab olunur. O, öd ifrazına kömək edir, öd kisəsinin və qaraciyərin fəaliyyətini yaxşılaşdırır.

Bunun üçün 2-3 xörək qaşığı itburnuna 0,5 lt. miqdarında qaynar su əlavə etmək lazımdır. Sonra 2 saat saxlayıb, cunadan suyunu süzüb gün ərzində 3 dəfə yeməkdən 15-20 dəqiqə əvvəl qəbul etmək lazımdır.

Onu da qeyd edək ki, bu şirənin effektinin itməməsi üçün, onu 2 gündən çox saxlamaq olmaz. Bu şirənin tərkibində C vitaminin olmağı orqanizmi ümümi gücləndirir və immuniteti yüksəltməyə kömək edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**